Deloitte.

Making an impact 20 years in Azerbaijan



# 2024-cü ildə vergi qanunvericiliyində edilən dəyişikliklər

**Yanvar 2024**

# Giriş



**Nuran Kərimov**
**Partnyor**
Vergi və Hüquq xidmətləri
Tel:+994 (12) 4041210
Email: nkerimov@deloitte.az



**Nərmin Aslanova**
**Partnyor**
Vergi və Hüquq xidmətləri
Tel:+994 (12) 4041210
Email: naslanova@deloitte.az

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişiklik edilməsi barəsində 5 dekabr 2023-cü il tarixli Qanun ("Qanun") 28 dekabr 2023-cü il tarixində dərc edilmişdir.

Vergi Məcəlləsinə edilən növbəti əsaslı dəyişikliklər seriyası Məcəlləyə yeni anlayışların daxil edilməsi ilə yanaşı bir çox digər yenilikləri də əhatə edir. Belə ki, yeniliklərin əhatə dairəsi əsasən kölgə iqtisadiyyatı ilə mübarizəyə qarşı vergi nəzarət mexanizmlərinin gücləndirilməsi, vergi əməletməsi ilə bağlı vergi ödəyiciləri üçün nəzərdə tutulan vəzifələr, mövcud vergi güzəştləri üzrə müddətlərin artırılması, vergi qanunvericiliyinin müəyyən müddəalarının aydınlaşdırılması və eləcə də bir sıra digər dəyişikliklərdən ibarətdir.

Bu buraxılışımızda sizə yuxarıda sadalanan və həmçinin ayrı-ayrı vergi növləri üzrə nəzərdə tutulan dəyişiklikləri həm birbaşa həm də müqayisəli formada nəzərinizə çatdırmaq istəyirik.

Qanun ilə bağlı hər hansı sualınız yaranarsa, bizə çəkinmədən müraciət edə bilərsiniz.

Hörmətlə,

Deloitte Vergi və Hüquq Komandası

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi ödəyicisi və vergi orqanlarının hüquq və vəzifələri

## Əlavə məlumatların tələb edilməsi – Kommunal və Rabitə

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 16.1.6. Bu Məcəllə ilə müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarına və onların vəzifəli şəxslərinə zəruri olan kağız və elektron daşıyıcılarda olan məlumatları və sənədləri (orta və iri sahibkarlıq subyektləri eləcə də maliyyə hesabatlarını), habelə mühasibat uçotu elektron formatda aparıldığı halda, özünün, filiallarının və digər struktur bölmələrinin elektron daşıyıcılarında olan məlumatlara və uçot bazalarına birbaşa və ya məsafədən çıxış imkanı yaratmaqla, həmin məlumatları vergi orqanının tələbi ilə təqdim etmək. | 16.1.6. Bu Məcəllə ilə müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarına və onların vəzifəli şəxslərinə zəruri olan kağız və elektron daşıyıcılarda olan məlumatları və sənədləri (orta və iri sahibkarlıq subyektləri eləcə də maliyyə hesabatlarını), mühasibat uçotu elektron formatda aparıldığı halda, **vergi ödəyicisinin** özünün, filiallarının və digər struktur bölmələrinin elektron daşıyıcılarında olan məlumatlara və uçot bazalarına **habelə kommunal və rabitə xidmətləri göstərən vergi ödəyiciləri tərəfindən abunəçilər üzrə göstərilən və vergilərin hesablanmasına əsas verən xidmətlərin müddəti, həcmi, dəyəri, ödənişləri və digər iqtisadi göstəricilərini hesablayan və özündə əks etdirən, digər xidmət təminatçıları ilə qarşılıqlı hesablaşmaların aparılması üçün məlumatları saxlayan sistemlərə** birbaşa və ya məsafədən çıxış imkanı yaratmaqla, həmin məlumatları vergi orqanının tələbi ilə təqdim etmək*. |

**Qeyd edilən məlumatlar təqdim edilmədiyi, sistemə çıxış imkanı yaradılmadığı halda, səyyar vergi yoxlamasını bilavasitə həyata keçirən vergi orqanının əsaslandırılmış müraciətinə əsasən məhkəmənin qərarı ilə təmin edilmə həyata keçirilir (Maddə 43.11).*

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi ödəyicisi və vergi orqanlarının hüquq və vəzifələri

*Yeni maddə:*

## Əlavə məlumatların tələb edilməsi – Taksi sifarişi operatorları

16.1.11-13. **taksi sifarişi operatorları tərəfindən malik olduqları informasiya sistemi vasitəsilə** müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi aylıq məlumatları hər ay başa çatdıqdan sonra **növbəti ayın 20-dən gec olmayaraq**, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron informasiya sisteminə ötürmək;

57.8. Bu Məcəllənin 16.1.11-13-cü maddəsində göstərilən məlumatları müəyyən edilən müddətdə təqdim etməyən və ya təhrif olunmuş məlumatları təqdim edən **taksi sifarişi operatorlarına 1000 manat məbləğində maliyyə sanksiyası** tətbiq edilir.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Riskli vergi ödəyiciləri

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Riskli vergi ödəyiciləri

## Anlayışlar

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 13.2.81. əmtəəsiz əməliyyat – vergi nəzarəti tədbiri zamanı aşkarlanan, başqa əməliyyatı pərdələmək məqsədilə aparılan və faktiki olaraq mallar, işlər və xidmətlər təqdim edilmədən mənfəət əldə etmək məqsədilə rəsmiləşdirilən əməliyyatlar; | 13.2.81. əmtəəsiz əməliyyat – vergi nəzarəti tədbiri zamanı aşkarlanan, başqa əməliyyatı pərdələmək məqsədilə **və ya bu cür məqsəd olmadan** aparılan və faktiki olaraq mallar, işlər və xidmətlər təqdim edilmədən mənfəət **(gəlir)** əldə etmək məqsədilə rəsmiləşdirilən əməliyyatlar; |
| 13.2.82. riskli vergi ödəyicisi – müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi meyarlara cavab verən, o cümlədən əmtəəsiz və (və ya) riskli əməliyyatlar aparan şəxsdir. Vergi ödəyicisinin riskli vergi ödəyicisi olması, habelə riskli vergi ödəyiciləri siyahısından çıxarılması barədə qərar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qəbul edilir; | 13.2.82. riskli vergi ödəyicisi – müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi ~~meyarlara~~ **risk meyarlarına** cavab verən~~, o cümlədən əmtəəsiz və (və ya) riskli əməliyyatlar aparan~~ şəxsdir. ~~Vergi ödəyicisinin riskli vergi ödəyicisi olması, habelə riskli vergi ödəyiciləri siyahısından çıxarılması barədə qərar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qəbul edilir.~~ **Vergi ödəyicisinin riskli vergi ödəyicilərinin siyahısına daxil edilməsi və həmin siyahıdan çıxarılması qaydasını və şərtlərini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir. Vergi ödəyicisinin riskli vergi ödəyicilərinin siyahısına daxil edilməsi və həmin siyahıdan çıxarılması barədə qərar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qəbul edilir;** |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Riskli vergi ödəyiciləri

*Yeni maddə:*
## Maliyyə sanksiyaları

58.15-1. vergi nəzarəti tədbirləri ilə **əmtəəsiz əməliyyatlar çərçivəsində riskli vergi ödəyicisi olması barədə qərar qəbul edilmiş** vergi ödəyicilərinə aşağıdakı maliyyə sanksiyaları tətbiq edilir:

58.15-1.1. təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə aparılmış əmtəəsiz əməliyyatın məbləğinin **10 faizi** miqdarında;

58.15-1.2. təqvim ili ərzində belə hallara ikinci dəfə yol verdikdə aparılmış əmtəəsiz əməliyyatın məbləğinin **20 faizi** miqdarında;

58.15-1.3. təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verildikdə aparılmış əmtəəsiz əməliyyatın məbləğinin **40 faizi** miqdarında.

**Qeyd edilən sanksiyalar VM-in 13.2.82-ci maddəsində (əvvəlki səhifə) nəzərdə tutulan qayda və şərtlərin təsdiq edildiyi tarixlə eyni gündə qüvvəyə minir.*

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Riskli vergi ödəyiciləri

*Yeni maddə:*

## Əlavə tələblərin müəyyən edilməsi

***Vergi ödəyicisinin hüququ***

15.1.15-4. bu Məcəllənin 16.1.11-14-cü maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada*, bu Məcəllənin 30.8**-ci maddəsinin tələbləri nəzərə alınmaqla həmin vergi ödəyicilərinin **vergi orqanında olan məlumatlarına çıxış əldə etmək**

***Vergi ödəyicisinin vəzifəsi***

16.1.11-14. təsərrüfat əməliyyatları aparılan zaman malları (işləri, xidmətləri) ona təqdim edən vergi ödəyicilərinin işgüzar nüfuzunun, maliyyə vəziyyətinin, qanuni sahibliyində müvafiq malların mövcudluğunun, habelə iş və xidmətlərin təqdim edilməsi üçün müvafiq işçi və digər resurslara, bilik və bacarığa malik olmasının yoxlanılması məqsədilə həmin **vergi ödəyicilərindən müvafiq təsdiqedici sənədlər əldə etmək**

**Qeyd edilən maddələr bu Qayda ilə eyni gündə qüvvəyə minəcək.*

***30.8. Vergi ödəyicisinə aid məlumat vergi ödəyicisinin yazılı icazəsi ilə digər şəxsə verilə bilər.*

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Bazar qiyməti

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Bazar qiyməti

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 14.3. Bu Məcəllənin 14-1.2-ci maddəsində nəzərdə tutulan şəxslər arasında həyata keçirilən əməliyyatlar istisna olmaqla, bazar qiyməti nəzərə alınmaqla vergilərin hesablanması aşağıdakı hallarda həyata keçirilə bilər: | 14.3. Bu Məcəllənin 14-1.2-ci maddəsində nəzərdə tutulan şəxslər arasında həyata keçirilən əməliyyatlar istisna olmaqla, bazar qiyməti nəzərə alınmaqla vergilərin hesablanması aşağıdakı hallarda həyata keçirilə bilər: |
| 14.3.6. Vergi ödəyicisi tərəfindən vergi nəzarəti tədbiri zamanı malların (işlərin, xidmətlərin) təqdim edilməsinə (alınmasına) dair sənədlər təqdim edilmədikdə (mövcud olmadıqda). | 14.3.6. vergi ödəyicisi tərəfindən vergi nəzarəti tədbiri zamanı malların (işlərin, xidmətlərin) təqdim edilməsinə ~~(alınmasına)~~ dair sənədlər təqdim edilmədikdə (mövcud olmadıqda). |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Bazar qiyməti

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 14.6.5. Alınmış malların (işlərin, xidmətlərin) alış qiyməti bazar qiymətlərindən topdansatış ticarət fəaliyyəti sahəsində 10 faizdən, tikinti və istehsal fəaliyyəti sahəsində 20 faizdən, digər fəaliyyət sahələrində 30 faizdən çox yuxarıdırsa və onların dəyəri gəlirdən çıxılan xərclərə aid edilibsə, aşağıdakı hallarda həmin malların (işlərin, xidmətlərin) dəyəri gəlirdən çıxılan xərclərə bazar qiymətləri ilə aid edilir və vergilər yenidən hesablanır:<br><br>14.6.5.1. Alınmış malların (işlərin, xidmətlərin) faktiki alış dəyərinin əsassız artırılması aşkar edildiyi halda;<br><br>14.6.5.2. Malgöndərəni (iş görəni, xidmət göstərəni) müəyyənləşdirmək mümkün olmadıqda. | 14.6.5. Alınmış malların (işlərin, xidmətlərin) alış qiyməti bazar qiymətlərindən topdansatış ticarət fəaliyyəti sahəsində 10 faizdən, tikinti və istehsal fəaliyyəti sahəsində 20 faizdən, digər fəaliyyət sahələrində 30 faizdən çox yuxarıdırsa və onların dəyəri gəlirdən çıxılan xərclərə aid edilibsə, ~~aşağıdakı hallarda~~ **alınmış malların (işlərin, xidmətlərin) faktiki alış dəyərinin əsassız artırılması aşkar edildiyi halda** həmin malların (işlərin, xidmətlərin) dəyəri gəlirdən çıxılan xərclərə bazar qiymətləri ilə aid edilir və vergilər yenidən hesablanır:.<br><br>~~14.6.5.1. alınmış malların (işlərin, xidmətlərin) faktiki alış dəyərinin əsassız artırılması aşkar edildiyi halda;~~<br><br>~~14.6.5.2. malgöndərəni (iş görəni, xidmət göstərəni) müəyyənləşdirmək mümkün olmadıqda.~~ |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi nəzarəti

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi nəzarəti

## Vergi yoxlamaları və maliyyə institutlarında vergi monitorinqi

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 36.3-1. Vergi ödəyicisində keçirilən səyyar vergi yoxlaması zamanı bu maddə ilə müəyyən olunmuş müddətlər nəzərə alınmaqla yoxlamanın əhatə etdiyi dövr və (və ya) vergi növləri aşağıdakı hallarda artırıla bilər:<br>36.3-1.1. vergi ödəyicisinin müraciəti əsasında;<br>36.3-1.2. keçirilən səyyar vergi yoxlamasının əhatə etdiyi dövrdən sonrakı dövrdə vergidən yayınma hallarının olması barədə vergi orqanında mənbəyi bəlli məlumatlar olduqda;<br>36.3-1.3. cinayət prosesual qanunvericiliyinə uyğun olaraq məhkəmənin və ya hüquq mühafizə orqanlarının vergi yoxlamalarının keçirilməsi barədə müvafiq qərarı olduqda. | 36.3-1. Vergi ödəyicisində keçirilən səyyar vergi yoxlaması zamanı bu maddə ilə müəyyən olunmuş müddətlər nəzərə alınmaqla yoxlamanın əhatə etdiyi dövr və (və ya) vergi növləri aşağıdakı hallarda artırıla bilər:<br>36.3-1.1. vergi ödəyicisinin müraciəti əsasında;<br>36.3-1.2. keçirilən səyyar vergi yoxlamasının əhatə etdiyi dövrdən sonrakı dövrdə vergidən yayınma hallarının olması barədə vergi orqanında mənbəyi bəlli məlumatlar olduqda;<br>36.3-1.3. cinayət prosesual qanunvericiliyinə uyğun olaraq məhkəmənin və ya hüquq mühafizə orqanlarının vergi yoxlamalarının keçirilməsi barədə müvafiq qərarı olduqda;<br>**36.3-1.4. mənfəət, gəlir, əmlak və torpaq vergilərinin biri və ya bir neçəsi üzrə vergi hesabatının təqdim edilməsi müddəti səyyar vergi yoxlamasının davam etdiyi müddətdə başa çatdıqda.** |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi nəzarəti

## Operativ vergi nəzarəti

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 50.6. operativ vergi nəzarətinin nəticələri üzrə vergi orqanının vəzifəli şəxsləri tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada akt tərtib edilir. Operativ vergi nəzarəti tədbirlərinin keçirilməsi zamanı bu Məcəllənin 39-43-cü və 46-49-cu maddələrinin müddəaları tətbiq edilir. | 50.6. operativ vergi nəzarətinin nəticələri üzrə vergi orqanının vəzifəli şəxsləri tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada akt tərtib edilir. Operativ vergi nəzarəti tədbirlərinin keçirilməsi zamanı bu Məcəllənin **39-49-cu** maddələrinin müddəaları tətbiq edilir*.<br><br>***Ekspert və mütəxəssisin dəvət edilməsi** |

### Yeni maddə

50.4-1. bu Məcəllənin 50.1-ci maddəsi üzrə operativ vergi nəzarəti bu Məcəllənin 56.1-ci və 85.4-cü maddələrində nəzərdə tutulan dövr üzrə həyata keçirilir**.

*****Vergi öhdəliklərinin yoxlanması və toplanması üzrə 3 və 5 illik limitlər nəzərdə tutulur.***

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Maliyyə sanksiyaları

# Maliyyə sanksiyaları

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 58.6. bu Məcəllənin 175.1.3-cü maddəsinə müvafiq olaraq bu Məcəllənin 175.8-ci maddəsində göstərilən vergi ödəyicisi tərəfindən malların (iş və xidmətlərin) dəyəri ödənilən gündən 1 iş günü müddətində ƏDV məbləğinin ödənilməməsinə görə vergi ödəyicisinə vaxtında ödənilməmiş ƏDV məbləğinin 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir. | 58.6. bu Məcəllənin 175.1.3-cü maddəsinə müvafiq olaraq bu Məcəllənin 175.8-ci maddəsində göstərilən vergi ödəyicisi tərəfindən malların (iş və xidmətlərin) dəyəri ödənilən gündən 1 iş günü müddətində ƏDV məbləğinin ödənilməməsinə görə **(bu Məcəllənin 177.5-ci maddəsində nəzərdə tutulan halda ƏDV məbləğinin 1 iş günü müddətində ödənilməməsi istisna olmaqla)** vergi ödəyicisinə vaxtında ödənilməmiş ƏDV məbləğinin 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir. |
| 58.8.3. bu Məcəllədə nəzərdə tutulmuş qaydada gəlirlərin və xərclərin uçotu aparılmadıqda – alıcıya rəsmiləşdirilməyən xərclərin 20 faizi miqdarında. | ~~58.8.3. bu Məcəllədə nəzərdə tutulmuş qaydada gəlirlərin və xərclərin uçotu aparılmadıqda – alıcıya rəsmiləşdirilməyən xərclərin 20 faizi miqdarında.~~ |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Maliyyə sanksiyaları

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 58.16. bu Məcəllənin 58.8-ci maddəsinin məqsədləri üçün malların dəyəri dedikdə həmin malların alış qiyməti, malların alış qiymətini müəyyən etmək mümkün olmadığı halda isə topdansatış bazar qiyməti nəzərdə tutulur. Alışı bu Məcəllə ilə müəyyən edilmiş qaydada rəsmiləşdirilməyən malların təqdim edilməsinə dair tərtib edilmiş elektron qaimə-fakturalarda mallar barədə məlumatlar, o cümlədən malın adı dəqiq göstərilmədikdə, həmin malların alışı ilə bağlı çəkilən xərclərin dəyəri təqdim edilən malların dəyərinin 1,2-yə bölünməsi yolu ilə alınan dəyər kimi müəyyən edilir. | 58.16. Bu Məcəllənin **58.8.2-ci** maddəsinin məqsədləri üçün malların dəyəri dedikdə həmin malların alış qiyməti, malların alış qiymətini müəyyən etmək mümkün olmadığı halda isə **topdansatış bazar qiyməti** nəzərdə tutulur. ~~Alışı bu Məcəllə ilə müəyyən edilmiş qaydada rəsmiləşdirilməyən malların təqdim edilməsinə dair tərtib edilmiş elektron qaimə-fakturalarda mallar barədə məlumatlar, o cümlədən malın adı dəqiq göstərilmədikdə, həmin malların alışı ilə bağlı çəkilən xərclərin dəyəri təqdim edilən malların dəyərinin 1,2-yə bölünməsi yolu ilə alınan dəyər kimi müəyyən edilir.~~ |

## Yeni maddə

108.1-1. Alışı və ya mədaxili bu Məcəllədə nəzərdə tutulmuş qaydada rəsmiləşdirilməyən mallara görə vergi ödəyicisinə bu Məcəllənin **58.8.2-ci maddəsinə əsasən maliyyə sanksiyası tətbiq edilmişdirsə**, həmin malların bu Məcəllənin **58.16-cı maddəsinə uyğun olaraq müəyyən edilən dəyəri gəlirdən çıxılan xərclərə aid edilir**.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi orqanında şikayətə baxılma

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi orqanında şikayətə baxılma

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 63.1. Vergi ödəyicisinin və ya başqa borclu şəxsin vergi orqanının qərarlarından (aktlarından), vergi orqanının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayətinə yuxarı vergi orqanı və ya onun vəzifəli şəxsi tərəfindən həmin şikayət alındığı gündən 30 gün müddətində baxılır və şikayət vermiş şəxsə yazılı cavab verilir. | 63.1. Vergi ödəyicisinin və ya başqa borclu şəxsin vergi orqanının qərarlarından (aktlarından), vergi orqanının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayətinə yuxarı vergi orqanı və ya onun vəzifəli şəxsi tərəfindən həmin şikayət alındığı gündən **30 iş günü** müddətində baxılır və şikayət vermiş şəxsə yazılı cavab verilir.<br><br>**Şikayət üzrə əhəmiyyət kəsb edən halların müəyyən olunması üçün 30 iş günündən artıq müddət tələb olunduğu hallarda şikayətə baxılması müddəti vergi orqanı tərəfindən bir dəfə 30 iş günü müddətində uzadıla bilər. Müddətin uzadılması barədə şikayət vermiş şəxsə 3 iş günü ərzində məlumat verilir.** |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergilərin ödənilməsi üzrə ümumi qaydalar

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergilərin ödənilməsi üzrə ümumi qaydalar

## Vergilər üzrə borcların alınması qaydası

### Yeni maddə

65.7-2. Vergi orqanının vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarında vergilər, faizlər və ya maliyyə sanksiyaları üzrə borc məbləğinin 105 faizi həcmində pul vəsaitinin məxaric əməliyyatları üzrə dondurulması haqqında sərəncamı vergi ödəyicisinin bir neçə kredit və ya elektron pul təşkilatında olan hesablarına verildikdə və bu zaman borc məbləği vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarından hər hansı biri üzrə dondurulduqda, həmin vəsaitin dondurulmasını təmin edən kredit və ya elektron pul təşkilatı vergi ödəyicisinin müraciəti əsasında bu barədə məlumatı vergi orqanına elektron qaydada təqdim edir. Vergi orqanı təqdim olunan məlumat əsasında digər kredit və ya elektron pul təşkilatlarına verilən sərəncamların 1 iş günü müddətində geri qaytarılmasını təmin edir.

65.7-3. Vergi orqanının vergi ödəyicisinin eyni kredit və ya elektron pul təşkilatında olan bir neçə hesablarına verilmiş vergilər, faizlər və ya maliyyə sanksiyaları üzrə borc məbləğinin 105 faizi həcmində pul vəsaitinin məxaric əməliyyatları üzrə dondurulması haqqında sərəncamları olduqda və bu zaman borc məbləği vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarından hər hansı biri üzrə dondurulduqda, vergi orqanı həmin kredit və ya elektron pul təşkilatının elektron müraciəti əsasında digər hesablar üzrə sərəncamların 1 iş günü müddətində geri qaytarılmasını təmin edir.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergilərin ödənilməsi üzrə ümumi qaydalar

## Əlaqəli məlumatlar əsasında verginin hesablanması

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 67.2. Vergi ödəyicisi tərəfindən ödənilməli olan verginin əlaqəli məlumatlara əsasən müəyyənləşdirilməsi üçün aşağıda göstərilən meyarlar nəzərə alınmaqla vergi ödəyicisinin fəaliyyətinə analoji fəaliyyətlə məşğul olan vergi ödəyicisinin vergi orqanında olan məlumatlarından istifadə edilir:<br>67.2.1. eyni xüsusiyyətli və ya eyni cinsli malların istehsalı;<br>67.2.2. eyni xüsusiyyətli və ya eyni cinsli malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi;<br>67.2.3. fəaliyyət göstərilən ərazi. | 67.2. Vergi ödəyicisi tərəfindən ödənilməli olan verginin **(mənfəət və gəlir vergisi istisna olmaqla)** əlaqəli məlumatlara əsasən müəyyənləşdirilməsi üçün aşağıda göstərilən meyarlar nəzərə alınmaqla vergi ödəyicisinin fəaliyyətinə analoji fəaliyyətlə məşğul olan vergi ödəyicisinin vergi orqanında olan məlumatlarından istifadə edilir:<br>67.2.1. eyni xüsusiyyətli və ya eyni cinsli malların istehsalı;<br>67.2.2. eyni xüsusiyyətli və ya eyni cinsli malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi;<br>67.2.3. fəaliyyət göstərilən ərazi. |
| 67.3. Vergilər əlaqəli məlumatlar və analoji vergi ödəyicisi barədə məlumatlar əsasında hesablandıqda, verginin məbləği vergi ödəyicisinin müvafiq olaraq gəlirinin, yaxud gəlirdən çıxılan xərclərinin məbləğini analoji fəaliyyətlə məşğul olan vergi ödəyicisinin həmin hesabat dövründə gəlirində, yaxud gəlirdən çıxılan xərclərində verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyənləşdirilir. | ~~67.3. Vergilər əlaqəli məlumatlar və analoji vergi ödəyicisi barədə məlumatlar əsasında hesablandıqda, verginin məbləği vergi ödəyicisinin müvafiq olaraq gəlirinin, yaxud gəlirdən çıxılan xərclərinin məbləğini analoji fəaliyyətlə məşğul olan vergi ödəyicisinin həmin hesabat dövründə gəlirində, yaxud gəlirdən çıxılan xərclərində verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyənləşdirilir.~~ |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergilərin ödənilməsi üzrə ümumi qaydalar

## Əlaqəli məlumatlar əsasında verginin hesablanması

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 67.14. Bu Məcəllənin 67.1-ci maddəsində göstərilən hallarda vergi ödəyicisinin gəlirlərini və ya xərclərini müəyyən etmək mümkün olduqda mənfəət (gəlir) vergisi bu Məcəllənin 83.9-cu maddəsinə əsasən hesablanır. | ~~67.14. Bu Məcəllənin 67.1-ci maddəsində göstərilən hallarda vergi ödəyicisinin gəlirlərini və ya xərclərini müəyyən etmək mümkün olduqda mənfəət (gəlir) vergisi bu Məcəllənin 83.9-cu maddəsinə əsasən hesablanır.~~ |
| 83.9. Vergi ödəyicisinin əldə etdiyi mənfəəti (gəliri) birbaşa müəyyən etmək mümkün olmadığı halda, həmin mənfəət (gəlir) müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydalar əsasında hesablanır. | ~~83.9. Vergi ödəyicisinin əldə etdiyi mənfəəti (gəliri) birbaşa müəyyən etmək mümkün olmadığı halda, həmin mənfəət (gəlir) müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydalar əsasında hesablanır.~~ |

### Yeni maddə

67.3-1. Vergi ödəyicisi tərəfindən vergiyə cəlb edilən gəlirlər rəsmiləşdirilmədikdə, lakin gəlirdən çıxılan xərclərə dair əlaqəli məlumatlar mövcud olduqda **vergi tutulan mənfəət (gəlir) 50 faiz həcmində rentabellik nəzərə alınmaqla hesablanır**.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergilərin ödənilməsi üzrə ümumi qaydalar

## Vergilər ödəyiciləri ilə yazışma

### Yeni maddə

70.2-4. Vergi ödəyicilərinin müraciətlərinə vergi orqanının cavabları elektron üsulla vergi ödəyicisinin elektron kabinetinə göndərilir. Vergi ödəyicisinin müraciəti əsasında həmin cavabların kağız daşıyıcıda olan surəti ona verilir.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergilərin ödənilməsi üzrə ümumi qaydalar

## Öhdəliklərinin yerinə yetirilməsi növbəliliyi

### Müəssisə ləğv edildiyi halda

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
| --- | --- |
| 79.3. Müəssisənin iflas prosesinə məruz qaldığı hallarda vergi öhdəlikləri qanunla müəyyən edilmiş növbəlilik qaydasında yerinə yetirilir. Müflis elan olunmuş bankların vergi öhdəlikləri "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş ödənişlərin növbəliliyi ardıcıllığına uyğun olaraq yerinə yetirilir. | 79.3. Müəssisənin iflas prosesinə məruz qaldığı hallarda vergi öhdəlikləri qanunla müəyyən edilmiş növbəlilik qaydasında yerinə yetirilir. Müflis elan olunmuş bankların **və sığorta (təkrarsığorta) təşkilatlarının** vergi öhdəlikləri **müvafiq olaraq** "Banklar haqqında" **və "Sığorta fəaliyyəti haqqında"** Azərbaycan Respublikasının **qanunlarında** nəzərdə tutulmuş ödənişlərin növbəliliyi ardıcıllığına uyğun olaraq yerinə yetirilir. |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergilərin ödənilməsi üzrə ümumi qaydalar

## Öhdəliklərinin yerinə yetirilməsi növbəliliyi

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 88.1. Vergilər üzrə yaranmış borc bu Məcəllənin 85.4-cü maddəsinin müddəaları nəzərə alınmaqla aşağıdakı sıra qaydası ilə ödənilir: | 88.1. **Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təmin edilmiş borc məbləğləri istisna olmaqla,** vergilər üzrə yaranmış borc bu Məcəllənin 85.4-cü maddəsinin müddəaları nəzərə alınmaqla aşağıdakı sıra qaydası ilə ödənilir: |
| 88.1.1. yaranma tarixi ardıcıllığı ilə hesablanmış verginin məbləği;<br>88.1.2. hesablanmış faizlərin məbləği;<br>88.1.3. tətbiq edilmiş maliyyə sanksiyalarının məbləği. | 88.1.1. yaranma tarixi ardıcıllığı ilə hesablanmış verginin məbləği;<br>88.1.2. hesablanmış faizlərin məbləği;<br>88.1.3. tətbiq edilmiş maliyyə sanksiyalarının məbləği. |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergilərin ödənilməsi üzrə ümumi qaydalar

## Öhdəliklərinin yerinə yetirilməsi növbəliliyi

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 88.2. Məcburi dövlət sosial sığorta üzrə yaranmış borc aşağıdakı sıra qaydası ilə ödənilir: | 88.2. **Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təmin edilmiş borc məbləğləri istisna olmaqla,** **m**əcburi dövlət sosial sığorta üzrə yaranmış borc aşağıdakı sıra qaydası ilə ödənilir: |
| 88.2.1. cari rüb üzrə borc; | 88.2.1. cari rüb üzrə borc; |
| 88.2.2. cari rübdən geriyə doğru (daha əvvəl yaranan borclar üzrə) yaranan borclar ardıcıl olaraq; | 88.2.2. cari rübdən geriyə doğru (daha əvvəl yaranan borclar üzrə) yaranan borclar ardıcıl olaraq; |
| 88.2.3. yaranma tarixi ardıcıllığı ilə hesablanmış faizlərin məbləği; | 88.2.3. yaranma tarixi ardıcıllığı ilə hesablanmış faizlərin məbləği; |
| 88.2.4. yaranma tarixi ardıcıllığı ilə tətbiq edilmiş maliyyə sanksiyalarının məbləği. | 88.2.4. yaranma tarixi ardıcıllığı ilə tətbiq edilmiş maliyyə sanksiyalarının məbləği. |
| 88.3. Cari rüb üzrə borc ödənildikdən sonra sığortaedənin artıq vəsaiti qaldığı təqdirdə, həmin vəsait bu Məcəllənin 88.2.2 – 88.2.4-cü maddələrində göstərilən qaydada əvvəlki borcların ödənilməsinə aid edilir. | 88.3. Cari rüb üzrə borc ödənildikdən sonra sığortaedənin artıq vəsaiti qaldığı təqdirdə, həmin vəsait bu Məcəllənin 88.2.2 – 88.2.4-cü maddələrində göstərilən qaydada əvvəlki borcların ödənilməsinə aid edilir. |
| | **88.2-1. Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təmin edilmiş borc məbləğləri bu Məcəllənin 88.1-ci və 88.2-ci maddələrində göstərilən sıra qaydasından asılı olmayaraq, hər bir qətnamə üzrə ayrılıqda ödənilir.** |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergilərin ödənilməsi üzrə ümumi qaydalar

## Vergi öhdəliyinin yerinə yetirilməsi müddətləri

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 85.5-1. Bu Məcəllənin 85.4-cü və 85.5-ci maddələrində müddətlə bağlı müəyyən edilmiş məhdudiyyətlər məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarına, habelə bu Məcəllənin 38.3.9-cu maddəsində nəzərdə tutulan hallara münasibətdə tətbiq edilmir. | 85.5-1. Bu Məcəllənin 85.4-cü və 85.5-ci maddələrində müddətlə bağlı müəyyən edilmiş məhdudiyyətlər məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarına **(bu sığorta haqları ilə bağlı tətbiq edilmiş maliyyə sanksiyaları və hesablanmış faizlər istisna olmaqla),** habelə bu Məcəllənin 38.3.9-cu maddəsində nəzərdə tutulan hallara münasibətdə tətbiq edilmir. |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergilərin ödənilməsi üzrə ümumi qaydalar

## Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 85.6. Bu Məcəllənin 85.8-ci maddəsinin müddəaları nəzərə alınmaqla vergi öhdəliklərinin yerinə yetirilməsi müddətləri aşağıda göstərilən halların biri olduqda bu Məcəllə ilə müəyyən edilmiş müddətdən daha gec müddətə dəyişdirilə bilər:<br>85.6.2. vergi borcunu birdəfəyə ödədiyi təqdirdə vergi ödəyicisinin iflasa uğramaq təhlükəsi olduqda; | 85.6. Bu Məcəllənin 85.8-ci maddəsinin müddəaları nəzərə alınmaqla vergi öhdəliklərinin yerinə yetirilməsi müddətləri aşağıda göstərilən halların biri olduqda bu Məcəllə ilə müəyyən edilmiş müddətdən daha gec müddətə dəyişdirilə bilər:<br>85.6.2. vergi borcunu birdəfəyə ödədiyi təqdirdə vergi ödəyicisinin iflasa uğramaq təhlükəsi olduqda **və ya vergi ödəyicisinin vergi borcunu birdəfəyə ödəmə qabiliyyəti olmadıqda. Vergi ödəyicisinin vergi borcunu ödəmə qabiliyyətinin müəyyənləşdirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir;** |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergilərin ödənilməsi üzrə ümumi qaydalar

## Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 85.8.5 Bu Məcəllənin 85.6.3-cü və 85.6.4-cü maddələrinə münasibətdə müraciət edən vergi ödəyicisinin vergi orqanında uçotda olduğu müddət 3 ildən az olduqda;<br>85.8. Aşağıdakı hallarda vergi öhdəliyinin yerinə yetirilməsi müddəti uzadıla bilməz: | 85.8.5 Bu Məcəllənin 85.6.3-cü və 85.6.4-cü maddələrinə münasibətdə müraciət edən vergi ödəyicisinin vergi orqanında uçotda olduğu müddət ~~3~~ **2** ildən az olduqda;<br>85.8. Aşağıdakı hallarda vergi öhdəliyinin yerinə yetirilməsi müddəti uzadıla bilməz:<br>**85.8.6. vergi ödəyicisi tərəfindən son bir il ərzində müddəti uzadılmış vergi öhdəliyi vaxtında yerinə yetirilmədikdə;**<br>**85.8.7. vergi ödəyicisi bu Məcəllənin 85.9-3-cü maddəsində nəzərdə tutulan ödənişi etmədikdə;** |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergilərin ödənilməsi üzrə ümumi qaydalar

## Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 85.9. Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması üçün vergi ödəyicisi tərəfindən vergi növü (növləri) üzrə vergi orqanına yazılı müraciət təqdim edilməlidir. Mikro və kiçik sahibkarlıq subyekti olan vergi ödəyicisinin borcu 2 000 manatdan 20 000 manatadək, orta sahibkarlıq subyekti olan vergi ödəyicisinin borcu 20 000 manatdan 100 000 manatadək və iri sahibkarlıq subyektinin borcu 100 000 manatdan 300 000 manatadək olduqda, vergi ödəyicisi tərəfindən müraciətə aşağıda göstərilən məlumatları əks etdirən sənədlər əlavə edilir: | 85.9. Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması üçün vergi ödəyicisi tərəfindən vergi növü (növləri) üzrə vergi orqanına yazılı müraciət təqdim edilməlidir. ~~Mikro və kiçik sahibkarlıq subyekti olan vergi ödəyicisinin borcu 2 000 manatdan 20 000 manatadək, orta sahibkarlıq subyekti olan vergi ödəyicisinin borcu 20 000 manatdan 100 000 manatadək və iri sahibkarlıq subyektinin borcu 100 000~~ **Vergi ödəyicisinin borcu 500** manatdan 300 000 manatadək olduqda, vergi ödəyicisi tərəfindən müraciətə aşağıda göstərilən məlumatları əks etdirən sənədlər əlavə edilir: |

### Yeni maddə

**85.9-3.** Bu Məcəllənin 85.6-cı maddəsində nəzərdə tutulmuş əsaslar olduğu halda vergi ödəyicisi vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması məqsədilə müraciətdə göstərilən **vergi borcunun 10 faizini ödəməlidir**.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergilərin ödənilməsi üzrə ümumi qaydalar

## Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 85.11. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müraciətin və digər sənədlərin daxil olduğu tarixdən 30 gün müddətində vergi ödəyicisinin müraciətinə baxır və bu Məcəllənin 85.6-cı maddəsində nəzərdə tutulmuş əsaslar olduğu halda vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması və ya vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılmasından imtina edilməsi barədə qərar qəbul edir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması haqqında qərarında müddətin uzadılmasının səbəbi, vergi üzrə borcun məbləği, ödənilməsi müddəti uzadılan verginin növü (növləri), ödənilmənin müddəti və qaydası, habelə girov, bank zəmanəti, vergi ödəyicisinin mülkiyyətində olan siyahıya alınmış daşınar və daşınmaz əmlaklar və zamin haqqında qeydlər göstərilməlidir. | 85.11. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müraciətin və digər sənədlərin daxil olduğu tarixdən 30 **iş** günü müddətində vergi ödəyicisinin müraciətinə baxır və bu Məcəllənin 85.6-cı maddəsində nəzərdə tutulmuş əsaslar olduğu halda vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması barədə qərar qəbul edir. **Qərarın qəbul edilməsi məqsədilə vergi orqanı bu Məcəllənin 85.9-3-cü maddəsində nəzərdə tutulan ödənişin edilməsi vəzifəsi barədə vergi ödəyicisinə yazılı məlumat verir. Qərarın qəbul edilməsi üçün müvafiq ödəniş vergi orqanının verdiyi məlumat alındığı tarixdən 3 iş günü ərzində vergi ödəyicisi tərəfindən həyata keçirilməlidir.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması haqqında qərarında müddətin uzadılması səbəbi, vergi üzrə borcun məbləği, ödənilməsi müddəti uzadılan verginin növü (növləri), ödənilmə müddəti və qaydası, habelə girov, bank zəmanəti, vergi ödəyicisinin mülkiyyətində olan siyahıya alınmış daşınar və daşınmaz əmlaklar və zamin haqqında qeydlər göstərilməlidir**. Bu Məcəllənin 85.6-cı maddəsində nəzərdə tutulmuş əsaslar olmadığı halda vergi orqanı öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılmasından imtina edilməsi barədə qərar qəbul edir və həmin qərarda imtinanın səbəbləri göstərilir.** |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergilərin ödənilməsi üzrə ümumi qaydalar

## Əmlakın siyahıya alınması

### Yeni maddə

89.8-1. Dövlət reyestri aparılan daşınmaz və daşınar əmlakı mövcud olan borclu vergi ödəyicisinin həmin əmlakının siyahıya alınmaya təqdim edilməsi məqsədilə, vergi orqanı tərəfindən əmlakın siyahıya alınması haqqında çıxarılmış qərarla birlikdə vergi ödəyicisinə müvafiq yazılı xəbərdarlıq da göndərilir.

Vergi ödəyicisi dövlət reyestri aparılan daşınmaz və daşınar əmlakı vergi orqanı tərəfindən müvafiq yazılı xəbərdarlıq edildikdən sonra da həmin xəbərdarlıqda müəyyən edilmiş müddətdə və yerdə siyahıya alınmaya təqdim etməkdən yayınarsa, həmin əmlak reyestr məlumatlarına əsasən vergi ödəyicisinin (onun qanuni və (və ya) səlahiyyətli nümayəndəsinin) və müşahidəçilərin iştirakı olmadan vergi orqanı tərəfindən siyahıya alınır.

Əmlakın siyahıya alınmasının vaxtı və yeri barədə yazılı qaydada xəbərdar edilmiş vergi ödəyicisi (onun qanuni və (və ya) səlahiyyətli nümayəndəsi) əmlakın siyahıya alınması prosesində iştirak etmədiyi halda, əmlakın siyahıya alınmasını həyata keçirən vergi orqanının vəzifəli şəxsləri 1 iş günü müddətində vergi ödəyicisinə (onun qanuni və (və ya) səlahiyyətli nümayəndəsinə) əmlakın siyahıya alınması haqqında protokolun surətini əlavələri ilə birlikdə göndərir.

Vergi orqanı dövlət reyestri aparılan daşınar və daşınmaz əmlakın bu Məcəlləyə uyğun olaraq siyahıya alınmasını apardıqdan sonra 1 iş günü müddətində həmin əmlakın yüklü edilməsi barədə məlumatı bu əmlakın dövlət reyestrini aparan səlahiyyətli dövlət orqanına (qurumuna) elektron və ya kağız daşıyıcıda verir.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Fiziki şəxslərin gəlir vergisi

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Fiziki şəxslərin gəlir vergisi

## Sosial xarakterli xərclər

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 98.2. Bu Məcəllənin 98.1-ci maddəsinin məqsədləri üçün gəlirin məbləği, aşağıda göstərilən məbləğdən işçinin əldə etdiyi gəlirə görə ödədiyi hər hansı xərc çıxıldıqdan sonra qalan məbləğə bərabərdir:<br>98.2.3. işçinin xərclərinin əvəzi ödənildiyi halda - ödənən vəsaitin məbləği; | 98.2. Bu Məcəllənin 98.1-ci maddəsinin məqsədləri üçün gəlirin məbləği, aşağıda göstərilən məbləğdən işçinin əldə etdiyi gəlirə görə ödədiyi hər hansı xərc çıxıldıqdan sonra qalan məbləğə bərabərdir:<br>98.2.3. **bu Məcəllənin 119.2-ci maddəsində nəzərdə tutulmuş xərclər istisna olmaqla**, işçinin xərclərinin əvəzi ödənildiyi halda - ödənən vəsaitin məbləği; |
| 98.5. İşə götürən tərəfindən bu Məcəllənin 109.3-cü maddəsində nəzərdə tutulmuş xərclərin çəkilməsinin nəticəsi kimi əldə edilən gəlir vergi tutulan gəlirə aid deyildir. | 98.5. İşə götürən tərəfindən bu Məcəllənin 109.3-cü **və 119.2-ci maddələrində** nəzərdə tutulmuş xərclərin çəkilməsinin nəticəsi kimi əldə edilən gəlir vergi tutulan gəlirə aid deyildir. |

### Yeni maddə

**119.2.** Nümayəndəlik xərclərinin, işçilərlə bağlı mənzil və yemək xərclərinin, eləcə də əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə verilən müalicə-profilaktik yeməklərin, süd və ona bərabər tutulan digər məhsullar və vasitələrlə bağlı xərclərin gəlirdən çıxılması normaları və qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Fiziki şəxslərin gəlir vergisi

## Dəniz nəqliyyatında üzücü heyət

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 98.3. Faktiki ezamiyyə xərclərinin, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə sutkalıq ödənişlərin və ya digər işgüzar xərclərin əvəzinin ödənilməsi gəlirə daxil deyildir. | 98.3. Faktiki ezamiyyə xərclərinin, ~~habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə sutkalıq ödənişlərin~~ və ya digər işgüzar xərclərin əvəzinin ödənilməsi gəlirə daxil deyildir. |
| 102.1.14.1. iş vaxtı daimi yolda olan və ya işi gediş-gəliş (səyyar) xarakteri daşıyan, çöl təşkilatlarında işləyən işçilərə gündəlik ezamiyyə xərclərinin əvəzində verilən əlavə vəsaitin, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə sutkalıq ödənişlərin qanunvericiliklə nəzərdə tutulan məbləği; | 102.1.14.1. iş vaxtı daimi yolda olan və ya işi gediş-gəliş (səyyar) xarakteri daşıyan, çöl təşkilatlarında işləyən işçilərə gündəlik ezamiyyə xərclərinin əvəzində verilən əlavə vəsaitin~~, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə sutkalıq ödənişlərin~~ qanunvericiliklə nəzərdə tutulan məbləği; |

### Yeni maddə

102.1.14.33. **dəniz nəqliyyatında xarici daşımaçılıqla məşğul olan ticarət donanmasının heyət üzvlərinə** vəzifə maaşlarına verilən aylıq əlavə pul təminatının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən məbləği.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Fiziki şəxslərin gəlir vergisi

## Azadolmalar və güzəştlər

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 102.1.3. təqvim ili ərzində alınan hədiyyə, maddi yardım, birdəfəlik müavinət və miraslar:<br><br>102.1.3.1. hədiyyələrin və təhsil haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 1000 manatadək olan hissəsi, mirasların dəyərinin 20000 manatadək olan hissəsi. | 102.1.3. təqvim ili ərzində alınan hədiyyə, maddi yardım, birdəfəlik müavinət və miraslar:<br><br>102.1.3.1. hədiyyələrin və təhsil haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin ~~1000~~ **2500** manatadək olan hissəsi, mirasların dəyərinin 20000 manatadək olan hissəsi; |
| 102.1.11-1. kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) rezident hüquqi şəxslərin iştirakçıları olan fiziki şəxslərin dividend gəlirləri - 2023-cü il yanvarın 1-dən 1 il müddətinə. | 102.1.11-1. kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) rezident hüquqi şəxslərin iştirakçıları olan fiziki şəxslərin dividend gəlirləri - 2023-cü il yanvarın 1-dən ~~1~~ **4** il müddətinə. |
| 102.4.2. 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin valideynləri, arvadları (ərləri) və övladları. Bu şəxslərin arvadlarına (ərlərinə) güzəşt o halda verilir ki, onlar təkrar nikaha girmiş olmasınlar; | ~~102.4.2. 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin valideynləri, arvadları (ərləri) və övladları. Bu şəxslərin arvadlarına (ərlərinə) güzəşt o halda verilir ki, onlar təkrar nikaha girmiş olmasınlar;~~ |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Fiziki şəxslərin gəlir vergisi

## Azadolmalar və güzəştlər

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 102.1.15. yarışlarda və müsabiqələrdə əşya şəklində alınan mükafatların tam dəyəri. Beynəlxalq yarışlarda (idman yarışları istisna olmaqla) və müsabiqələrdə pul şəklində alınan mükafatların dəyəri 4000 manatadək, respublika, regional, şəhər və rayon yarışlarında (idman yarışları istisna olmaqla) və müsabiqələrində isə – 200 manatadək;<br>Beynəlxalq, ölkələrarası idman yarışları ilə bağlı həmin yarışların təşkilatçıları tərəfindən verilən mükafatların tam dəyəri, habelə ölkədaxili (respublika, regional, şəhər və rayon səviyyəli) idman yarışları ilə bağlı respublika idman federasiyaları (assosiasiyaları) və idman klubları tərəfindən pul şəklində verilən mükafatların dəyəri 50000 manatadək. | 102.1.15. yarışlarda və müsabiqələrdə əşya şəklində alınan mükafatların tam dəyəri. Beynəlxalq yarışlarda (idman yarışları istisna olmaqla) və müsabiqələrdə pul şəklində alınan mükafatların dəyəri 4000 manatadək, respublika, regional, şəhər və rayon yarışlarında (idman yarışları istisna olmaqla) və müsabiqələrində isə – 200 manatadək;<br>Beynəlxalq, ölkələrarası idman yarışları ilə bağlı həmin yarışların təşkilatçıları **və respublika idman federasiyaları (assosiasiyaları)** tərəfindən verilən mükafatların tam dəyəri, habelə ölkədaxili (respublika, regional, şəhər və rayon səviyyəli) idman yarışları ilə bağlı respublika idman federasiyaları (assosiasiyaları) və idman klubları tərəfindən pul şəklində verilən mükafatların dəyəri 50000 manatadək. |
| 102.1.35. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş qaydada dövlət büdcəsinin vəsaiti hesabına ödənilən ixrac təşviqi; | ~~102.1.35. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş qaydada dövlət büdcəsinin vəsaiti hesabına ödənilən ixrac təşviqi;~~ |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Fiziki şəxslərin gəlir vergisi

## Azadolmalar və güzəştlər

### Yeni maddə

102.1.22-3. yerli bank və xarici bankın Azərbaycan Respublikasındakı filialı tərəfindən fiziki şəxslərin **hər bir bankda** (xarici bankın Azərbaycan Respublikasındakı filialında) **milli valyutada** olan depozitlər üzrə hesablanan **aylıq faiz gəlirlərinin 200 manatadək olan hissəsi**;

102.1.22-4. yerli bank və xarici bankın Azərbaycan Respublikasındakı filialı tərəfindən fiziki şəxslərin **hər bir bankda** (xarici bankın Azərbaycan Respublikasındakı filialında) **milli valyutada** olan depoziti 18 ay və daha artıq müddətə yerləşdirildikdə və depozitin məbləği **18 aydan tez olmayaraq** ödənildikdə hesablanan **faiz gəlirlərinin tam hissəsi** – 3 il müddətinə;

102.1.40. Bu Məcəllənin 165.5-ci, 165.6-cı və 228-ci maddələrinə əsasən fiziki şəxs olan istehlakçılar tərəfindən ödənilmiş **ƏDV-nin qaytarılmasına görə əldə olunan gəlirlər**;

102.1.41. özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən dövlət büdcəsinə ƏDV hesablanarkən bu Məcəllənin **174.5-ci* maddəsinə əsasən ƏDV məbləğinin azaldılmasından** əldə edilən gəlirlər.

*Yeni maddə: Dövriyyədən hesablanmış ƏDV-nin 50%-nin büdcəyə ödənilməməsini nəzərdə tutur.  Ətraflı məlumat təqdimatın ƏDV hissəsində verilmişdir.*

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Fiziki şəxslərin gəlir vergisi

## Səhmlərin və ya iştirak paylarının təqdim edilməsi

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
| --- | --- |
| 96.5. Hüquqi şəxsin nizamnamə kapitalındakı iştirak payı və ya səhmlər xalis aktivlərin iştirak payı və ya səhmlərə mütənasib dəyərindən yuxarı qiymətə təqdim edildikdə faktiki təqdimetmə qiyməti ilə nizamnamə kapitalındakı iştirak payının və ya səhmin nominal dəyəri arasındakı fərq, iştirak payı və ya səhmlər xalis aktivlərin iştirak payı və ya səhmlərə mütənasib dəyərindən aşağı qiymətə (güzəştli qiymətlə) təqdim edildikdə isə alqı-satqı müqaviləsinin bağlandığı tarixə xalis aktivlərin mütənasib dəyəri ilə nizamnamə kapitalındakı iştirak payının nominal dəyəri arasındakı fərq vergiyə cəlb edilən gəlirdir. İştirak payları və ya səhmlər nominal qiymətdən yuxarı qiymətə alınmışdırsa, həmin iştirak paylarının və ya səhmlərin təqdim edilməsi zamanı gəlirdən çıxılan xərclər bu aktivlərin faktiki satınalma qiyməti ilə nəzərə alınır. | 96.5. Hüquqi şəxsin nizamnamə kapitalındakı iştirak payı və ya səhmlər xalis aktivlərin iştirak payı və ya səhmlərə mütənasib dəyərindən yuxarı qiymətə təqdim edildikdə faktiki təqdimetmə qiyməti ilə nizamnamə kapitalındakı iştirak payının və ya səhmin nominal dəyəri arasındakı fərq, iştirak payı və ya səhmlər xalis aktivlərin iştirak payı və ya səhmlərə mütənasib dəyərindən aşağı qiymətə (güzəştli qiymətlə) təqdim edildikdə isə alqı-satqı müqaviləsinin bağlandığı tarixə xalis aktivlərin mütənasib dəyəri ilə nizamnamə kapitalındakı iştirak payının nominal dəyəri arasındakı fərq vergiyə cəlb edilən gəlirdir. İştirak payları və ya səhmlər nominal qiymətdən yuxarı qiymətə alınmışdırsa, həmin iştirak paylarının və ya səhmlərin təqdim edilməsi zamanı gəlirdən çıxılan xərclər bu aktivlərin faktiki satınalma qiyməti ilə nəzərə alınır. **Bu zaman iştirak payı və ya səhmlərin təqdim edilməsi əməliyyatı ilə bağlı əldə olunan gəlirdən həmin gəlirin əldə olunması ilə bağlı çəkilən digər xərclər də çıxılır.** |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mənfəət vergisi

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 106.1.4. dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının, yerli özünüidarəetmə orqanlarının və dövlətin adından yaradılan publik hüquqi şəxslərin gəlirləri (sahibkarlıq fəaliyyətindən gəlir, o cümlədən publik hüquqi şəxslərin bu Məcəllənin 164.1.48-ci maddəsində göstərilmiş işlərin görülməsi və xidmətlərin göstərilməsindən (həmin maddədə nəzərdə tutulan müddətdə) başqa digər ödənişli işlər görməsindən və xidmətlər göstərməsindən əldə olunan gəlirləri və faiz gəlirləri istisna olmaqla); | 106.1.4. dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının, yerli özünüidarəetmə orqanlarının və dövlətin adından yaradılan publik hüquqi şəxslərin gəlirləri (**dividend gəlirləri,** sahibkarlıq fəaliyyətindən gəlir, o cümlədən publik hüquqi şəxslərin bu Məcəllənin 164.1.48-ci maddəsində göstərilmiş işlərin görülməsi və xidmətlərin göstərilməsindən (həmin maddədə nəzərdə tutulan müddətdə) başqa digər ödənişli işlər görməsindən və xidmətlər göstərməsindən əldə olunan gəlirləri və faiz gəlirləri istisna olmaqla); |
| 106.1.5. Azərbaycan Respublikası Mərkəzi Bankının və onun qurumlarının, ipoteka kreditləşməsi və sahibkarların aldıqları kreditlərə təminat verilməsi sahəsində fəaliyyət göstərən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun), Azərbaycan Respublikası Dövlət Neft Fondunun, Əmanətlərin Sığortalanması Fondunun gəlirləri, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nizamnaməsinə (əsasnaməsinə) uyğun olaraq ayrılmış güzəştli kreditlər üzrə müvəkkil kredit təşkilatları tərəfindən həmin orqanlara (qurumlara) ödənilən faiz gəlirləri; | 106.1.5. Azərbaycan Respublikası Mərkəzi Bankının və onun qurumlarının, ipoteka kreditləşməsi və sahibkarların aldıqları kreditlərə təminat verilməsi sahəsində fəaliyyət göstərən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun), Azərbaycan Respublikası Dövlət Neft Fondunun, Əmanətlərin Sığortalanması Fondunun, **İcbari Sığorta Bürosunun** gəlirləri, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nizamnaməsinə (əsasnaməsinə) uyğun olaraq ayrılmış güzəştli kreditlər üzrə müvəkkil kredit təşkilatları tərəfindən həmin orqanlara (qurumlara) ödənilən faiz gəlirləri; |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mənfəət vergisi

## Azadolmalar və güzəştlər

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 106.1.7. təhsil müəssisələrinin, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərin təhsil alması üçün yaradılmış xüsusi təhsil müəssisələrinin mənfəəti – mənfəətin dividendlərin ödənilməsinə yönəldilən hissəsi istisna olmaqla; | 106.1.7. təhsil müəssisələrinin, o cümlədən **məktəbəqədər təhsil müəssisələrinin və** sağlamlıq imkanları məhdud şəxslərin təhsil alması üçün yaradılmış xüsusi təhsil müəssisələrinin mənfəəti – mənfəətin dividendlərin ödənilməsinə yönəldilən hissəsi istisna olmaqla; |
| 106.1.14. kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən, sənaye üsulu ilə) hüquqi şəxslərin bu fəaliyyətdən əldə etdikləri gəlirləri - 2014-cü il yanvarın 1-dən 10 il müddətinə; | 106.1.14. kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən, sənaye üsulu ilə) hüquqi şəxslərin bu fəaliyyətdən əldə etdikləri ~~gəlirləri~~ **mənfəət** - 2014-cü il yanvarın 1-dən ~~10~~ **13** il müddətinə; |
| 106.1.14-1. kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) hüquqi şəxslərin bu fəaliyyət üzrə satışdankənar gəlirləri, kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar hüquqi şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına verilən subsidiyalar, habelə kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) rezident hüquqi şəxslərin iştirakçıları olan hüquqi şəxslərin bu sahə üzrə dividend gəlirləri - 2023-cü il yanvarın 1-dən 1 il müddətinə; | 106.1.14-1. kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) hüquqi şəxslərin bu fəaliyyət üzrə satışdankənar gəlirləri, kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar hüquqi şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına verilən subsidiyalar, habelə kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) rezident hüquqi şəxslərin iştirakçıları olan hüquqi şəxslərin bu sahə üzrə dividend gəlirləri - 2023-cü il yanvarın 1-dən ~~1~~ **4** il müddətinə; |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mənfəət vergisi

## Azadolmalar və güzəştlər

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 106.1.18. dövlətin adından yaradılan publik hüquqi şəxslər istisna olmaqla, vergi ödəyicisinin hesabat ilinin mənfəətinin 10 faizindən çox olmayan hissəsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən meyarlara cavab verən elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara köçürülən hissəsi – 2019-cu il 1 yanvar tarixdən 10 il müddətinə, siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara köçürülən hissəsi üzrə isə - 2021-ci il 1 yanvar tarixdən 8 il müddətinə. Bu maddənin müddəaları yalnız nağdsız qaydada ödənilən xərclərə münasibətdə tətbiq edilir. | 106.1.18. dövlətin adından yaradılan publik hüquqi şəxslər istisna olmaqla, vergi ödəyicisinin hesabat ilinin mənfəətinin ~~10~~ **15** faizindən çox olmayan hissəsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən meyarlara cavab verən elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara ~~köçürülən hissəsi – 2019-cu il 1 yanvar tarixdən 10 il müddətinə~~, **habelə** siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara köçürülən hissəsi ~~üzrə isə - 2021-ci~~ **2024-cü il yanvarın 1-dən** ~~tarixdən 8~~ **5 il** müddətinə. Bu maddənin müddəaları yalnız nağdsız qaydada ödənilən xərclərə münasibətdə tətbiq edilir. |
| 106.1.27. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş qaydada dövlət büdcəsinin vəsaiti hesabına ödənilən ixrac təşviqi; | ~~106.1.27. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş qaydada dövlət büdcəsinin vəsaiti hesabına ödənilən ixrac təşviqi;~~ |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mənfəət vergisi

## Azadolmalar və güzəştlər

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 106.1.28. Azərbaycan Respublikasında keçirilən Formula 1 və Formula 2 yarışlarına aid qeyri-maddi aktivlər üzərində müəllif hüquqlarından istifadə olunmasına, yaxud istifadə hüquqlarının verilməsinə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə bağlanılmış müqavilə əsasında onun tərəfindən qeyri-rezident hüquqi şəxsə ödənilən royalti gəlirləri - 2018-ci il yanvarın 1-dən 6 il müddətinə. | 106.1.28. Azərbaycan Respublikasında keçirilən Formula 1 və Formula 2 yarışlarına aid qeyri-maddi aktivlər üzərində müəllif hüquqlarından istifadə olunmasına, yaxud istifadə hüquqlarının verilməsinə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə bağlanılmış müqavilə əsasında onun tərəfindən qeyri-rezident hüquqi şəxsə ödənilən royalti gəlirləri - 2018-ci il yanvarın 1-dən ~~6~~ **9** il müddətinə; |

### Yeni maddə

106.1.33 qanunla müəyyən olunmuş qaydada Azərbaycan Respublikasında qeydiyyatdan keçən və **filmin istehsalını, habelə dublyajını həyata keçirən**, mikro sahibkarlıq subyekti olmayan kinematoqrafiya müəssisəsinin sahibkarlıq fəaliyyətindən əldə etdikləri **mənfəətin 75 faizi** - 2024-cü il yanvarın 1-dən 3 il müddətinə.

106.1.34. tibb müəssisələri tərəfindən dövlət büdcəsinə ƏDV hesablanarkən bu Məcəllənin **174.5-ci* maddəsinə əsasən ƏDV məbləğinin azaldılmasından** əldə edilən gəlirlər.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mənfəət vergisi

## Xərclərin gəlirdən çıxılması şərtləri

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 108.1. Bu fəsilə uyğun olaraq gəlirdən çıxılmayan xərclərdən başqa, gəlirin əldə edilməsi ilə bağlı olan bütün xərclər, həmçinin qanunla nəzərdə tutulmuş icbari ödənişlər gəlirdən çıxılır. | 108.1. Bu fəsilə uyğun olaraq gəlirdən çıxılmayan xərclərdən başqa, gəlirin əldə edilməsi ilə bağlı olan bütün xərclər, həmçinin qanunla nəzərdə tutulmuş icbari ödənişlər gəlirdən çıxılır. **Gəlirdən çıxılan xərclər qanunla müəyyən edilmiş qaydada rəsmiləşdirilməlidir. Qanunla müəyyən edilmiş qaydada rəsmiləşdirilməyən xərclərin gəlirdən çıxılmasına yol verilmir.** |

### Yeni maddə

108.1-1. Alışı və ya mədaxili bu Məcəllədə nəzərdə tutulmuş qaydada rəsmiləşdirilməyən mallara görə vergi ödəyicisinə bu Məcəllənin **58.8.2-ci maddəsinə əsasən maliyyə sanksiyası tətbiq edilmişdirsə**, həmin malların bu Məcəllənin **58.16-cı maddəsinə uyğun olaraq müəyyən edilən dəyəri gəlirdən çıxılan xərclərə aid edilir**.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mənfəət vergisi

## Xərclərin gəlirdən çıxılması şərtləri – Sosial xarakterli xərclər

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
| --- | --- |
| 109.3. Əyləncə və yemək xərclərinin (müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş normalar daxilində müalicə-profilaktik yeməklərə, süd və ona bərabər tutulan digər məhsullara və vasitələrə sərf olunan xərclər, həmçinin dəniz nəqliyyatında üzücü heyətə verilən yemək xərcləri istisna olmaqla), habelə işçilərin mənzil və digər sosial xarakterli xərclərinin gəlirdən çıxılmasına yol verilmir. | 109.3. **Bu Məcəllənin 119.2-ci maddəsində nəzərdə tutulmuş xərclər istisna olmaqla, işçilərin və onların ailə üzvlərinin sosial xarakterli xərclərinin və əyləncə xərclərinin gəlirdən çıxılmasına yol verilmir.** |

### Yeni maddə

**119.2.** Nümayəndəlik xərclərinin, işçilərlə bağlı mənzil və yemək xərclərinin, eləcə də əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə verilən müalicə-profilaktik yeməklərin, süd və ona bərabər tutulan digər məhsullar və vasitələrlə bağlı xərclərin gəlirdən çıxılması normaları və qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mənfəət vergisi

## Xərclərin gəlirdən çıxılması şərtləri – Kassa çeki

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
| --- | --- |
| 109.8. Nəzarət-kassa aparatının çeki və ya qəbz (bu Məcəllənin 16.1.11-6.1-ci–16.1.11-6.3-cü maddələrində nəzərdə tutulan şəxslər tərəfindən verilən qəbz və ya digər ciddi hesabat blankları istisna olmaqla) malların (işlərin, xidmətlərin) alınması ilə bağlı çəkilən xərcləri təsdiq edən sənəd hesab olunmur. | 109.8. **"Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununun 3.5-ci maddəsində göstərilən mallar, habelə daşınmaz əmlak, avtomobil nəqliyyatı vasitələri və daşınar əsas vəsaitlər istisna olmaqla, digər malların vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan fiziki şəxslərdən alış aktı əsasında alınması və ya malların vergi ödəyicilərindən bu Məcəllənin 50.8-ci maddəsinin tələblərinə cavab verən nəzarət kassa aparatının çeki əsasında alınması üzrə gəlirdən çıxılan xərclərin yuxarı həddi vergi ödəyicisinin hər il üçün gəlirlərinin və xərclərinin ən yüksəyinin hər bir hal üzrə 2 faizi həddində məhdudlaşdırılır və bu həddən yuxarı məbləğ gəlirdən çıxılmır.** |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mənfəət vergisi

## Xərclərin gəlirdən çıxılması şərtləri – Təmir xərcləri

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 115.1. Hər il üçün gəlirdən çıxılmalı olan təmir xərclərinin məbləği əsas vəsaitlərin hər bir kateqoriyasının əvvəlki ilin sonuna qalıq dəyərinə müvafiq olaraq bu Məcəllənin 114.3.1-ci maddəsində göstərilən əsas vəsaitlərin kateqoriyasının ilin sonuna qalıq dəyərinin 2 faizi, 114.3.2-ci, 114.3.2-1-ci və 114.3.3-cü maddələrində göstərilən əsas vəsaitlərin kateqoriyasının ilin sonuna qalıq dəyərinin 5 faizi 114.3.7-ci maddəsində göstərilən əsas vəsaitlərin kateqoriyasının ilin sonuna qalıq dəyərinin 3 faizi və köhnəlmə (amortizasiya) hesablanmayan əsas vəsaitlər üzrə sıfır (0) faizi həddi ilə məhdudlaşdırılır. Təmir xərclərinin faktiki məbləği bu hədd ilə müəyyənləşdirilən məbləğdən az olduqda, gəlirdən təmir xərclərinin faktiki məbləği çıxılır. | 115.1. Hər il üçün gəlirdən çıxılmalı olan təmir xərclərinin məbləği əsas vəsaitlərin hər bir kateqoriyasının əvvəlki ilin sonuna qalıq dəyərinə müvafiq olaraq bu Məcəllənin 114.3.1-ci maddəsində göstərilən əsas vəsaitlərin kateqoriyasının ilin sonuna qalıq dəyərinin 2 faizi, 114.3.2-ci, 114.3.2-1-ci və 114.3.3-cü maddələrində göstərilən əsas vəsaitlərin **(yük avtomobilləri istisna olmaqla)** kateqoriyasının ilin sonuna qalıq dəyərinin 5 faizi**, yük avtomobillərinin ilin sonuna qalıq dəyərinin 8 faizi,** 114.3.7-ci maddəsində göstərilən əsas vəsaitlərin kateqoriyasının ilin sonuna qalıq dəyərinin 3 faizi və köhnəlmə (amortizasiya) hesablanmayan əsas vəsaitlər üzrə sıfır (0) faizi həddi ilə məhdudlaşdırılır. Təmir xərclərinin faktiki məbləği bu hədd ilə müəyyənləşdirilən məbləğdən az olduqda, gəlirdən təmir xərclərinin faktiki məbləği çıxılır. Bu halda növbəti vergi illərində təmir xərclərinin gəlirdən çıxılan məbləğ həddi təmir xərclərinin faktiki məbləği ilə müəyyənləşdirilmiş hədd üzrə hesablanmış məbləği arasındakı fərq qədər artırılır. |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mənfəət vergisi

## Xərclərin gəlirdən çıxılması şərtləri – Təmir xərcləri

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 115.6-1. İcarəçinin balansında uçota alınmayan əsas vəsaitlərin təmirinə çəkilən və icarə haqqı ilə əvəzləşdirilməyən, yaxud icarəyə verən tərəfindən əvəzi ödənilməyən xərclər icarəçi tərəfindən kapitallaşdırılaraq təmir edilən əsas vəsaitin aid olduğu kateqoriya üzrə bu Məcəllənin 114.3-cü maddəsində müəyyən edilmiş amortizasiya dərəcəsi ilə amortizasiya olunur. Təqvim ilinin sonuna bu maddə ilə müəyyən edilmiş qaydada hər bir kateqoriya üzrə kapitallaşdırılmış təmir xərclərinin məbləği 500 manatdan az olduqda, həmin məbləğ gəlirdən çıxılır. | **115.6-1. İcarəçinin balansında uçota alınmayan əsas vəsaitlərin təmirinə çəkilən və icarə haqqı ilə əvəzləşdirilməyən, yaxud icarəyə verən tərəfindən əvəzi ödənilməyən xərclər bağlanmış müqavilə müddəti ərzində, lakin 5 ildən az olmayaraq, illər üzrə mütənasib məbləğlərdə amortizasiya olunmaqla gəlirdən çıxılır. İcarəyə götürülmüş əsas vəsaitlərin təmirinə çəkilən xərclər hər il üzrə ayrıca olaraq kapitallaşdırılır və bu maddə ilə müəyyən edilmiş qaydada amortizasiya olunur.*** |

**Dəyişiklik qüvvəyə mindiyi tarixədək icarəçi tərəfindən çəkilmiş və Vergi Məcəlləsinin 115.6-1-ci maddəsinə əsasən kapitallaşdırılaraq amortizasiya edilən təmir xərclərinin qalıq məbləği yeni qaydaya uyğun olaraq amortizasiya olunur.*

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mənfəət vergisi

## Xərclərin gəlirdən çıxılması şərtləri – Sığorta xərcləri

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 116.1. Öz işçilərinin xeyrinə əmlakın zərərdən sığortalanması, habelə xarici sığortaçılar ilə bağlanmış həyat sığortası müqavilələri üzrə sığorta haqları istisna olmaqla, sığortalının və təkrarsığortalının ödədiyi sığorta haqları gəlirdən çıxılır. | 116.1. Öz işçilərinin xeyrinə əmlakın zərərdən sığortalanması, habelə xarici sığortaçılar ilə bağlanmış həyat sığortası müqavilələri üzrə sığorta haqları istisna olmaqla, ~~sığortalının və təkrarsığortalının ödədiyi~~ sığorta haqları **üzrə, həmçinin təkrarsığorta müqavilələrinə münasibətdə təkrarsığorta haqları üzrə öhdəliklər** gəlirdən çıxılır. **Sığorta müqaviləsinin müddəti bir neçə hesabat dövrünü əhatə edirsə çəkilən sığorta haqqı xərcləri həmin hesabat dövrləri üzrə onun hesablanması qaydasına müvafiq surətdə bölüşdürülür.** |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

## Xərclərin gəlirdən çıxılması şərtləri – Digər

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 109.9. Əmtəəsiz əməliyyatlar çərçivəsində əldə edilmiş sənədlər gəlirdən çıxılan xərcləri təsdiq edən sənəd hesab edilmir və təqdim edilən malların (işlərin, xidmətlərin) dəyəri bu Məcəllənin 14-cü, 14-1-ci və 67-ci maddələri nəzərə alınmaqla gəlirdən çıxılır. | 109.9. Əmtəəsiz əməliyyatlar çərçivəsində əldə edilmiş sənədlər gəlirdən çıxılan xərcləri təsdiq edən sənəd hesab edilmir ~~və təqdim edilən malların (işlərin, xidmətlərin) dəyəri bu Məcəllənin 14-cü, 14-1-ci və 67-ci maddələri nəzərə alınmaqla gəlirdən çıxılır~~. |

### Yeni maddə

111.4. Müflis elan olunmuş banklar vergitutma məqsədləri üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada xüsusi ehtiyatları yaratmaqla gəlirdən çıxmaq hüququna malikdirlər.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Səhmlərin və ya iştirak paylarının təqdim edilməsi

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 104.6. Hüquqi şəxsin nizamnamə kapitalındakı iştirak payı və ya səhmlər xalis aktivlərin iştirak payı və ya səhmlərə mütənasib dəyərindən yuxarı qiymətə təqdim edildikdə faktiki təqdimetmə qiyməti ilə nizamnamə kapitalındakı iştirak payının və ya səhmin nominal dəyəri arasındakı fərq, iştirak payı və ya səhmlər xalis aktivlərin iştirak payı və ya səhmlərə mütənasib dəyərindən aşağı qiymətə (güzəştli qiymətlə) təqdim edildikdə isə alqı-satqı müqaviləsinin bağlanıldığı tarixə xalis aktivlərin mütənasib dəyəri ilə nizamnamə kapitalındakı iştirak payının nominal dəyəri arasındakı fərq vergiyə cəlb edilən mənfəətdir. İştirak payları və ya səhmlər nominal qiymətdən yuxarı qiymətə alınmışdırsa, həmin iştirak paylarının və ya səhmlərin təqdim edilməsi zamanı gəlirdən çıxılan xərclər bu aktivlərin faktiki satınalma qiyməti ilə nəzərə alınır. | 104.6. Hüquqi şəxsin nizamnamə kapitalındakı iştirak payı və ya səhmlər xalis aktivlərin iştirak payı və ya səhmlərə mütənasib dəyərindən yuxarı qiymətə təqdim edildikdə faktiki təqdimetmə qiyməti ilə nizamnamə kapitalındakı iştirak payının və ya səhmin nominal dəyəri arasındakı fərq, iştirak payı və ya səhmlər xalis aktivlərin iştirak payı və ya səhmlərə mütənasib dəyərindən aşağı qiymətə (güzəştli qiymətlə) təqdim edildikdə isə alqı-satqı müqaviləsinin bağlanıldığı tarixə xalis aktivlərin mütənasib dəyəri ilə nizamnamə kapitalındakı iştirak payının nominal dəyəri arasındakı fərq vergiyə cəlb edilən mənfəətdir. İştirak payları və ya səhmlər nominal qiymətdən yuxarı qiymətə alınmışdırsa, həmin iştirak paylarının və ya səhmlərin təqdim edilməsi zamanı gəlirdən çıxılan xərclər bu aktivlərin faktiki satınalma qiyməti ilə nəzərə alınır. **Bu zaman iştirak payı və ya səhmlərin təqdim edilməsi əməliyyatı ilə bağlı əldə olunan gəlirdən həmin gəlirin əldə olunması ilə bağlı çəkilən digər xərclər də çıxılır.** |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mənfəət vergisi

## Zərərin keçirilməsi

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 121.3. Bu Məcəllənin 157.3.3-cü maddəsində göstərilən hallar istisna olmaqla, vergi ödəyicisi mənfəət (gəlir) vergisinin ödəyicisi olduğu tarixədək yaranmış zərərlər, habelə bu Məcəllənin 114-cü və 115-ci maddələrində nəzərdə tutulan amortizasiya və təmir xərcləri normalarından aşağı norma tətbiq edilməsi nəticəsində yaranan və növbəti illərə keçirilən məbləğlər növbəti ilin gəlirləri hesabına kompensasiya edilmir. | 121.3. Bu Məcəllənin 157.3.3-cü maddəsində göstərilən hallar istisna olmaqla, vergi ödəyicisi mənfəət (gəlir) vergisinin ödəyicisi olduğu tarixədək yaranmış zərərlər, habelə bu Məcəllənin 114-cü və 115-ci maddələrində nəzərdə tutulan amortizasiya və təmir xərcləri normalarından aşağı norma tətbiq edilməsi nəticəsində yaranan və növbəti illərə keçirilən məbləğlər növbəti **illərin** gəlirləri hesabına kompensasiya edilmir. **Vergi ödəyicisinin mənfəət (gəlir) vergisi üzrə güzəşt hüququ olduğu dövrdə amortizasiya və təmir xərcləri normalarından aşağı norma tətbiq edilməsi nəticəsində yaranan məbləğlər güzəşt hüququ başa çatdıqdan sonrakı illərin gəlirdən çıxılan məbləğlərinə əlavə edilmir.** |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Elektron qaimə-faktura

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Elektron qaimə-faktura

## Avans ödənişləri üzrə elektron qaimə-fakturaları

### Yeni maddə

71-1.1. Bu Məcəllə ilə müəyyən edilən hallarda malları təqdim edən (göndərən), işləri görən və xidmətləri göstərən, habelə malların təsərrüfatdaxili yerdəyişməsini həyata keçirən vergi orqanında uçotda olan şəxs elektron qaimə-fakturanı aşağıdakı müddətlərdə təqdim (tərtib) etməlidir:

71-1.1.5. bu Məcəllənin 71-1.5.12-ci maddəsində nəzərdə tutulmuş halda - **avansın alındığı gün**.

71-1.5. Vergi ödəyicisi tərəfindən aparılan əməliyyatlar zamanı əməliyyatın xarakterindən asılı olaraq aşağıdakı növdə elektron qaimə-faktura verilir:

71-1.5.12. **alınmış avans ödənişləri barədə**.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Hesabatların verilməsi və ödəmələr

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Hesabatların verilməsi

## Mənfəət və gəlir vergisi

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 149.3. Vergi ödəyicisi Azərbaycan Respublikasında fəaliyyətini dayandırdıqda, habelə vergi ödəyicisi olan fiziki şəxsin fəaliyyətinə xitam verildikdə 30 gün müddətində vergi orqanlarına bəyannamə verməlidir. Bu maddənin məqsədləri üçün hesabat dövrü vergi ilinin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı və ya fiziki şəxsin fəaliyyətinə xitam verildiyi günə qədər olan dövrü əhatə edir. | 149.3. Vergi ödəyicisi Azərbaycan Respublikasında fəaliyyətini **müvəqqəti** dayandırdıqda, habelə vergi ödəyicisi olan fiziki şəxsin fəaliyyətinə xitam verildikdə 30 gün müddətində vergi orqanlarına bəyannamə verməlidir. Bu maddənin məqsədləri üçün hesabat dövrü vergi ilinin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı və ya fiziki şəxsin fəaliyyətinə xitam verildiyi günə qədər olan dövrü əhatə edir.<br>**Vergi ilində fəaliyyətini müvəqqəti dayandıran vergi ödəyicisi həmin vergi ilində fəaliyyətini təkrar bərpa edərsə bu Məcəllənin 149.2-ci maddəsində göstərilən müddətdə vergi orqanına dəqiqləşdirilmiş bəyannamə təqdim etməlidir.** |

## Yeni maddə

149.4-1. Mənfəət (gəlir) vergisi ödəyicisi olmayan vergi ödəyicisinin ƏDV qeydiyyatı bu Məcəllənin 157.3.3-cü maddəsinə uyğun olaraq keçmiş tarixlə aparıldıqda, vergi ödəyicisi qeydiyyat bildirişinin verildiyi tarixdən etibarən 90 gün müddətində bəyannaməni vergi orqanına təqdim etməyə borcludur.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Cari vergi ödəmələri

## Mənfəət və gəlir vergisi

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 151.5.1. Əvvəllər fəaliyyəti və ya vergi tutulan mənfəəti (gəliri) olmayan vergi ödəyicilərinin mənfəət vergisi və ya gəlir vergisi üzrə cari vergi ödəmələri təqvim ili ərzində rüblər üzrə artan yekunla bu Məcəllə ilə müəyyənləşdirilən müvafiq vergi dərəcələrinə əsasən hesablanır. | 151.5.1. Əvvəllər fəaliyyəti və ya vergi tutulan mənfəəti (gəliri) olmayan vergi ödəyicilərinin mənfəət vergisi və ya gəlir vergisi üzrə cari vergi ödəmələri təqvim ili ərzində rüblər üzrə artan yekunla **(əvvəlki illərdə yaranmış zərər məbləğləri vergi tutulan mənfəətdən (gəlirdən) çıxılmaqla)** bu Məcəllə ilə müəyyənləşdirilən müvafiq vergi dərəcələrinə əsasən hesablanır. |

### Yeni maddə

151.7. Cari vergi ödəmələri bu Məcəllədə nəzərdə tutulan güzəşt və azadolmalar nəzərə alınmaqla hesablanır və hesabat ili başa çatdıqdan sonra yenidən haqq-hesab edilir.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Ödəmə mənbəyində vergi

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Ödəmə mənbəyində vergi

## Dividend

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 122.1. Rezident müəssisə tərəfindən ödənilən dividenddən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur. | 122.1. Rezident müəssisə tərəfindən ödənilən dividenddən ödəmə mənbəyində ~~10~~ **5** faiz dərəcə ilə vergi tutulur. |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əlavə dəyər vergisi

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əlavə dəyər vergisi

## Qeydiyyata dair ərizə verilməsinin tələb edilməsi

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 155.1 Sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan şəxslər, o cümlədən bu Məcəllənin 218.1-ci maddəsi ilə müəyyən edilmiş hüquqdan istifadə etməyən ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər (bu Məcəllənin 218.4.1-ci, 218.4.2-ci və 218.4.3-cü maddələrində göstərilənlər istisna olmaqla) bu Məcəllənin 157.3.1-ci maddəsində göstərilən tarixdən 10 gün ərzində ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur. Bu Məcəllənin 154.6-cı maddəsində nəzərdə tutulan fəaliyyətlə məşğul olan şəxslər dövlət qeydiyyatına və ya vergi orqanında uçota alınmaq üçün ərizə ilə birlikdə, bu fəaliyyətlə sonradan məşğul olduqları halda isə həmin fəaliyyəti həyata keçirməyə başladığı günədək ƏDV məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludurlar. Bir əqd və ya müqavilə üzrə əməliyyatın ümumi dəyəri 200.000 manatdan artıq olduqda, bu əməliyyat ƏDV tutulan əməliyyat sayılır və həmin əməliyyatı həyata keçirən şəxs bu əməliyyatın aparıldığı günədək ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur. | 155.1 Sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan şəxslər, o cümlədən bu Məcəllənin 218.1-ci maddəsi ilə müəyyən edilmiş hüquqdan istifadə etməyən ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər (bu Məcəllənin 218.4.1-ci, 218.4.2-ci və 218.4.3-cü maddələrində göstərilənlər istisna olmaqla) bu Məcəllənin 157.3.1-ci maddəsində göstərilən tarixdən 10 gün ərzində ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur. Bu Məcəllənin 154.6-cı maddəsində nəzərdə tutulan fəaliyyətlə məşğul olan şəxslər dövlət qeydiyyatına və ya vergi orqanında uçota alınmaq üçün ərizə ilə birlikdə, bu fəaliyyətlə sonradan məşğul olduqları halda isə həmin fəaliyyəti həyata keçirməyə başladığı günədək ƏDV məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludurlar. Bir əqd və ya müqavilə üzrə əməliyyatın ümumi dəyəri 200.000 manatdan artıq olduqda, bu əməliyyat ƏDV tutulan əməliyyat sayılır və həmin əməliyyatı həyata keçirən şəxs bu əməliyyatın aparıldığı günədək ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur. **Bu Məcəllənin 218.1.2-ci maddəsində göstərilən şəxslər həmin maddədə müəyyən edilmiş hüquqdan istifadə etdikdə ardıcıl 12 aylıq dövrün istənilən ayında vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatı keçdiyi aydan sonrakı ayın 1-dən etibarən 10 gün ərzində fəaliyyətlərini sadələşdirilmiş vergi ödəyicisi kimi davam etdirəcəkləri barədə vergi orqanına yazılı formada ərizə təqdim etməlidirlər.** |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Könüllü qeydiyyat və vergitutma obyekti

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 156.1-2. Bu Məcəllənin 156.1-1-ci maddəsində nəzərdə tutulan şəxslər yanvar ayının 31-dən gec olmayaraq, ƏDV məqsədləri üçün qeydiyyata alınmasına dair ərizəni uçotda olduğu vergi orqanına təqdim edir və həmin şəxslərin ƏDV məqsədləri üçün qeydiyyatı həmin ayın birinci günündən qüvvəyə minir.<br>159.10. Bu Məcəllənin 164.1.11-ci, 164.1.15-ci, 164.1.16-cı, 164.1.20-164.1.25-ci, 164.1.33-cü və 164.1.35-ci maddələrinə uyğun olaraq ƏDV-dən azad edilən idxal mallarının Azərbaycan Respublikasının ərazisində təqdim edilməsi vergi tutulan əməliyyat sayılır. | ~~156.1-2. Bu Məcəllənin 156.1-1-ci maddəsində nəzərdə tutulan şəxslər yanvar ayının 31-dən gec olmayaraq, ƏDV məqsədləri üçün qeydiyyata alınmasına dair ərizəni uçotda olduğu vergi orqanına təqdim edir və həmin şəxslərin ƏDV məqsədləri üçün qeydiyyatı həmin ayın birinci günündən qüvvəyə minir.~~<br>~~159.10. Bu Məcəllənin 164.1.11-ci, 164.1.15-ci, 164.1.16-cı, 164.1.20-164.1.25-ci, 164.1.33-cü və 164.1.35-ci maddələrinə uyğun olaraq ƏDV-dən azad edilən idxal mallarının Azərbaycan Respublikasının ərazisində təqdim edilməsi vergi tutulan əməliyyat sayılır.~~ |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi ödəməkdən azad edilmə - Mərkəzi Bank

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 164.1.10. Azərbaycan Respublikası Mərkəzi Bankının və Azərbaycan Respublikasının Dövlət Neft Fondunun qanunvericiliklə nəzərdə tutulmuş vəzifələrinin yerinə yetirilməsi ilə bağlı mal idxalı, iş görülməsi və xidmət göstərilməsi. | 164.1.10. ~~Azərbaycan Respublikası Mərkəzi Bankının və~~ Azərbaycan Respublikasının Dövlət Neft Fondunun qanunvericiliklə nəzərdə tutulmuş vəzifələrinin yerinə yetirilməsi ilə bağlı mal idxalı, iş görülməsi və xidmət göstərilməsi. |

## Yeni maddə

164.1.9-1. qanunvericiliklə nəzərdə tutulmuş vəzifələrinin yerinə yetirilməsi ilə bağlı Azərbaycan Respublikasının **Mərkəzi Bankı tərəfindən mal idxalı, iş görülməsi, xidmət göstərilməsi** və **Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün xidmətlərin göstərilməsi və işlərin görülməsi**, o cümlədən xəzinə avadanlıqlarına texniki servis xidməti, pul nişanlarının istehsalı, daşınması, saxlanılması, sığortalanması, istehsal prosesinin auditinin keçirilməsi, ekspertizası, beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanılması və idarə edilməsi ilə əlaqədar xidmətlərin, informasiya sistemləri üzrə dəstəkləmə xidmətlərinin, habelə Azərbaycan Respublikası Mərkəzi Bankının məqsəd və funksiyalarının həyata keçirilməsi ilə əlaqədar məsləhət xidmətlərinin göstərilməsi;

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əlavə dəyər vergisi

## Vergi ödəməkdən azad edilmə - Kənd təsərrüfatı

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 164.1.18. kənd təsərrüfatı məhsullarının istehsalçıları (o cümlədən, sənaye üsulu ilə) tərəfindən özlərinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının satışı üzrə dövriyyələr - 2014-cü il yanvarın 1-dən 10 il müddətinə; | 164.1.18. kənd təsərrüfatı məhsullarının istehsalçıları (o cümlədən, sənaye üsulu ilə) tərəfindən özlərinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının satışı üzrə dövriyyələr - 2014-cü il yanvarın 1-dən **13** il müddətinə; |
| 164.1.27. buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı - 2017-ci il yanvarın 1-dən 7 il müddətinə; | 164.1.27. buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı - 2017-ci il yanvarın 1-dən **10** il müddətinə; |
| 164.1.31. mineral gübrələrin, pestisidlərin idxalı və satışı; | 164.1.31. **siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən** mineral gübrələrin, pestisidlərin idxalı və satışı; |
| 164.1.37. heyvan və quş ətinin satışı – 2020-ci il yanvarın 1-dən 4 il müddətinə; | 164.1.37. heyvan və quş ətinin satışı – 2020-ci il yanvarın 1-dən **7** il müddətinə; |
| 164.1.43. kəpəyin istehsalı və satışı – 2019-cu il martın 1-dən 5 il müddətinə; | 164.1.43. kəpəyin istehsalı və satışı – 2019-cu il martın 1-dən **8** il müddətinə; |
| 164.1.46. heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən yem və yem əlavələrinin satışı üzrə dövriyyələr – 2020-ci il yanvarın 1-dən 4 il müddətinə; | 164.1.46. ~~heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən~~ siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən yem və yem əlavələrinin satışı üzrə dövriyyələr – 2020-ci il yanvarın 1-dən **7** il müddətinə; |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əlavə dəyər vergisi

## Vergi ödəməkdən azad edilmə - Dövlət təhlükəsizliyi

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 164.1.19. müvafiq icra hakimiyyəti orqanı tərəfindən hərbi məqsədlər üçün istifadə olunan bütün növ texnika və texniki vasitələr, onların ehtiyat hissələri və xüsusi proqram təminatları, silah-sursat idxalı, müdafiə təyinatlı məmulatların yaradılması və istehsalı məqsədilə idxal edilən texnologiyalar, avadanlıqlar və dəstləşdirici hissələr; | 164.1.19. ~~müvafiq icra hakimiyyəti orqanı tərəfindən hərbi məqsədlər üçün istifadə olunan bütün növ texnika və texniki vasitələr, onların ehtiyat hissələri və xüsusi proqram təminatları, silah-sursat idxalı, müdafiə təyinatlı məmulatların yaradılması və istehsalı məqsədilə idxal edilən texnologiyalar, avadanlıqlar və dəstləşdirici hissələr;~~müdafiə təyinatlı məmulatların yaradılması və istehsalı fəaliyyətini həyata keçirən şəxslər tərəfindən bu məqsədlə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında texnologiyaların, avadanlıqların, dəstləşdirici hissələrin və xammalın idxalı və həmin şəxslər tərəfindən istehsal edilmiş müdafiə təyinatlı məmulatların satışı; |

### Yeni maddə

164.1.19-1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş təsdiqedici sənəd əsasında müdafiə və dövlət təhlükəsizliyi məqsədləri üçün istifadə olunan bütün növ texnika və texniki vasitələrin, onların ehtiyat hissələrinin, xüsusi proqram təminatlarının və silah-sursatın idxalı və satışı;

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əlavə dəyər vergisi

## Vergi ödəməkdən azad edilmə - Tibbi xidmətlər

### Dəyişikliklər - azadolma

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 164.1.51. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari tibbi sığorta fondunun vəsaiti hesabına tibbi xidmətlərin göstərilməsi – 2020-ci il yanvarın 1-dən 4 il müddətinə; | 164.1.51. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari tibbi sığorta fondunun, **habelə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən ictimai və sosial məqsədlər üçün yaradılmış fondların** vəsaiti hesabına tibbi xidmətlərin göstərilməsi – **2024-cü il yanvarın 1-dən 3 il** müddətinə; |

### Yeni maddə

***Azadolma***

164.1.51-1. tədris bazası kimi fəaliyyət göstərən tibb müəssisələrində tibbi xidmətlərin göstərilməsi - 2024-cü il yanvarın 1-dən 3 il müddətinə

***Güzəşt***

174.5. Tibb müəssisələrinin və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərin hesabat dövrü ərzində əhaliyə göstərilən tibbi xidmətlər üzrə nağdsız qaydada **POS-terminal vasitəsilə aparılan ödəmələr əsasında formalaşan dövriyyəsinin 50 faizi** 2024-cü il yanvarın 1-dən 3 il müddətinə onun vergi tutulan ümumi dövriyyəsindən çıxılır. Nağdsız ödəmələr nəzarət-kassa aparatına vahid əməliyyat sistemində inteqrasiya edilmiş POS-terminal vasitəsilə aparılmalıdır.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əlavə dəyər vergisi

## Vergi ödəməkdən azad edilmə - Digər

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 164.1.48. siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən dövlət adından yaradılan publik hüquqi şəxslər tərəfindən nizamnamələrində nəzərdə tutulan və onlara həvalə edilən vəzifələrin yerinə yetirilməsi üçün dövlət büdcəsindən ayrılmış vəsait hesabına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə bağlanılmış müqavilə əsasında işlərin və xidmətlərin göstərilməsi – 2020-ci il yanvarın 1-dən 4 il müddətinə; | 164.1.48. siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən dövlət adından yaradılan publik hüquqi şəxslər tərəfindən nizamnamələrində nəzərdə tutulan və onlara həvalə edilən vəzifələrin yerinə yetirilməsi üçün dövlət büdcəsindən ayrılmış vəsait hesabına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə bağlanılmış müqavilə əsasında işlərin və xidmətlərin göstərilməsi – 2020-ci il yanvarın 1-dən **7** il müddətinə; |
| 164.1.49. Azərbaycan Respublikasında keçirilən Formula 1 və Formula 2 yarışları ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə bağlanılmış müqavilə əsasında mal, iş və xidmətin təqdim edilməsi – 2018-ci il yanvarın 1-dən 6 il müddətinə; | 164.1.49. Azərbaycan Respublikasında keçirilən Formula 1 və Formula 2 yarışları ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə bağlanılmış müqavilə əsasında mal, iş və xidmətin təqdim edilməsi – 2018-ci il yanvarın 1-dən **9** il müddətinə; |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əlavə dəyər vergisi

## Vergi ödəməkdən azad edilmə - Digər

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 164.1.54. qızıldan və gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və emalı işlərinin görülməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında dəzgahların, avadanlıqların və qurğuların idxalı – 2021-ci il yanvarın 1-dən 3 il müddətinə; | 164.1.54. qızıldan və gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və emalı işlərinin görülməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında dəzgahların, avadanlıqların və qurğuların idxalı – 2021-ci il yanvarın 1-dən **6** il müddətinə; |

### Yeni maddə

164.1.62. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) verdiyi təsdiqedici sənəd əsasında **svop əməliyyatları çərçivəsində xam neftin və təbii qazın idxalı** - 2024-cü il yanvarın 1-dən 3 il müddətinə.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əlavə dəyər vergisi

## Vergi tutulan əməliyyatların aparıldığı vaxt

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 166.1. Bu maddədə başqa hallar nəzərdə tutulmamışdırsa, vergi tutulan əməliyyatın vaxtı təqdim edilən mallar (işlər və xidmətlər) üçün ödəmənin aparıldığı vaxtdır. Ödəmə aşağıdakı vaxtda aparılmış sayılır:<br>166.1.1. nağd pul vəsaitini aldığı, nağdsız ödəmədə isə pul vəsaitinin bankda onun hesabına və ya sərəncamçısı ola biləcəyi hesaba, yaxud göstərilən vəsaiti almaq hüququna malik olacağı hesaba daxil olduğu vaxt; | 166.1. Bu maddədə başqa hallar nəzərdə tutulmamışdırsa, vergi tutulan əməliyyatın vaxtı təqdim edilən mallar (işlər və xidmətlər) üçün ödəmənin aparıldığı vaxtdır. Ödəmə aşağıdakı vaxtda aparılmış sayılır:<br>166.1.1. **bu Məcəllənin 16.1.8-ci maddəsində göstərilən, nəzarət-kassa aparatı tətbiq edilməli olan fəaliyyət növləri istisna olmaqla digər fəaliyyət növləri üzrə** nağd pul vəsaitini aldığı, nağdsız ödəmədə isə pul vəsaitinin bankda onun hesabına və ya sərəncamçısı ola biləcəyi hesaba, yaxud göstərilən vəsaiti almaq hüququna malik olacağı hesaba daxil olduğu vaxt; |
| 166.7. Bu maddənin məqsədləri üçün ödəmə dedikdə, təqdim edilmiş malların (işlərin, xidmətlərin) ƏDV-siz dəyərinin ödənilməsi nəzərdə tutulur. | 166.7. Bu maddənin məqsədləri üçün ödəmə dedikdə, təqdim edilmiş malların (işlərin, xidmətlərin) ƏDV-siz dəyərinin **və ya ƏDV məbləğinin** ödənilməsi nəzərdə tutulur. |

### Yeni maddə

166.1.1-1. bu Məcəllənin 16.1.8-ci maddəsində göstərilən, **nəzarət-kassa aparatı tətbiq edilməli olan** fəaliyyət növləri üzrə ödənişlə (nağd və ya nağdsız) bağlı **nəzarət-kassa aparatı çekinin vurulduğu tarix**;

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# ƏDV-nin əvəzləşdirilməsi

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 175.1. Bu maddədə başqa hallar nəzərdə tutulmamışdırsa, ƏDV tutulan əməliyyatlar üçün malların (işlərin, xidmətlərin) alışı zamanı ödənilmiş ƏDV məbləği əməliyyatın dəyəri alıcının bank hesabından həmin malları (işləri, xidmətləri) təqdim edən şəxsin bank hesabına, ƏDV məbləği ƏDV-nin depozit hesabına ödənildikdə əvəzləşdirilir. Bu maddənin məqsədləri üçün malların (işlərin, xidmətlərin) barter edilməsi həmin əməliyyatın ƏDV-siz dəyərinin malları (işləri, xidmətləri) təqdim edən şəxsin bank hesabına ödənilməsinə bərabər tutulur. Bu zaman əvəzləşdirilən ƏDV-nin vaxtı aşağıdakı kimi müəyyənləşdirilir: | 175.1. Bu maddədə başqa hallar nəzərdə tutulmamışdırsa, ƏDV tutulan əməliyyatlar üçün malların (işlərin, xidmətlərin) alışı zamanı ödənilmiş ƏDV məbləği əməliyyatın dəyəri alıcının bank hesabından həmin malları (işləri, xidmətləri) təqdim edən şəxsin bank hesabına, ƏDV məbləği ƏDV-nin depozit hesabına ödənildikdə əvəzləşdirilir. Bu maddənin məqsədləri üçün malların (işlərin, xidmətlərin) barter edilməsi, **təqdim edilmiş malların (işlərin, xidmətlərin) dəyəri üzrə yaranmış maliyyə öhdəliklərinin qarşılıqlı şəkildə əvəzləşdirilməsi və ya notariusun depozit hesabı vasitəsilə həyata keçirilən əməliyyatlar üzrə əməliyyatın dəyərinin notariusun bankda açdığı depozit hesabına ödənilməsi** həmin əməliyyatın ƏDV-siz dəyərinin malları (işləri, xidmətləri) təqdim edən şəxsin bank hesabına ödənilməsinə bərabər tutulur. Bu zaman əvəzləşdirilən ƏDV-nin vaxtı aşağıdakı kimi müəyyənləşdirilir: |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# ƏDV-nin əvəzləşdirilməsi

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 175.3. Bu Məcəllənin 109.4-cü maddəsində göstərilən xərclər istisna olmaqla, bu Məcəllənin 109.3-cü maddəsində nəzərdə tutulan xərclər çəkiləndə, ƏDV-nin əvəzləşdirilməsinə yol verilmir. | 175.3. Bu Məcəllənin 109.4-cü **və 119.2-ci maddələrində** göstərilən xərclər istisna olmaqla, bu Məcəllənin 109.3-cü maddəsində nəzərdə tutulan xərclər çəkiləndə, ƏDV-nin əvəzləşdirilməsinə yol verilmir. |
| 175.11. Əmtəəsiz və (və ya) riskli əməliyyatların rəsmiləşdirildiyi sənədlər bu Məcəllənin 175-ci maddəsinin məqsədləri üçün verginin əvəzləşdirilməsinə əsas vermir. | 175.11. Əmtəəsiz ~~və (və ya) riskli əməliyyatların rəsmiləşdirildiyi~~ **əməliyyatlar çərçivəsində əldə edilmiş** sənədlər bu Məcəllənin 175-ci maddəsinin məqsədləri üçün verginin əvəzləşdirilməsinə əsas vermir. |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əlavə dəyər vergisi

## ƏDV-nin əvəzləşdirilməsi

### Yeni maddə

175.13. Bu Məcəllənin 175.12-ci maddəsinin müddəalarından asılı olmayaraq idxal edilmiş kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı ilə məşğul olan vergi ödəyiciləri **idxal etdikləri kənd təsərrüfatı məhsullarına görə ödənilmiş ƏDV-ni əvəzləşdirmək** və **həmin məhsulların təqdim edilməsi zamanı ƏDV-ni əməliyyatın tam dəyərindən hesablamaq** hüququna malikdirlər. Bu məqsədlə həmin şəxslər öz seçimləri barədə 2024-cü il yanvarın 1-dən kənd təsərrüfatı məhsullarını idxal edəcəkləri tarixədək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş məlumat formasını uçotda olduğu vergi orqanına təqdim etməlidirlər. Vergi ödəyicisi məlumat formasını qeyd edilən müddətdə təqdim etmədikdə bu Məcəllənin 175.12-ci maddəsinin müddəaları tətbiq olunur. Vergi ödəyicisinin bu maddə ilə müəyyən edilmiş seçimi il ərzində dəyişdirilmir.

175.14. Alınmış mallarla (işlərlə, xidmətlərlə) bağlı yaranmış borclar üzrə **faktorinq (tələbin güzəşti)** əməliyyatları çərçivəsində əməliyyatın dəyəri faktorun (tələb güzəşt edilən şəxsin) bank hesabına, ƏDV məbləği isə satıcının ƏDV depozit hesabına ödənildikdə ödənilmiş ƏDV məbləği əvəzləşdirilir.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Qeyri-rezidentlərin ƏDV-yə cəlb edilməsi

## Elektron ticarəti həyata keçirən qeyri-rezidentlərin ƏDV məqsədləri üçün elektron qaydada vergi uçotuna alınması

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 oktyabr 2023-cü il tarixli 387 nömrəli Qərarı ilə internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması qaydası (“Qayda”) təsdiq edilmişdir.

Sözügedən Qayda rezidentlərə elektron ticarət qaydasında işlərin və xidmətlərin* təqdim edilməsindən gəlir əldə edən elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınmasını, yenidən uçota alınmasını və uçotdan çıxarılması ilə bağlı təşkilati və hüquqi əsaslarını müəyyən edir.

Qeyri-rezident tərəfindən elektron ticarət qaydasında iş və xidmətlər üzrə aşağıdakı şərtlərdən hər hansı biri ödənildiyi halda vergi bəyannaməsi təqdim edilir:

- işləri və xidmətləri qəbul edən (alan) rezident şəxs ödənişi Azərbaycan Respublikasında yerləşən yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı, poçt rabitəsinin milli operatoru və ya digər ödəniş xidməti təchizatçıları vasitəsilə həyata keçirdikdə;
- işləri və xidmətləri qəbul edən (alan) rezident şəxs Azərbaycan Respublikasında yerləşdikdə;
- işləri və xidmətləri almaq üçün həmin işləri və xidmətləri qəbul edən (alan) rezident şəxsin istifadə etdiyi cihazın IP ünvanı Azərbaycan Respublikasında yerləşdikdə;
- işləri və xidmətləri almaq və ya ödənişi etmək üçün rezident şəxsin istifadə etdiyi mobil operatorların ölkə kodu Azərbaycan Respublikasına aid olduqda.

**İnternet məlumat resursları vasitəsilə xidmətlərin təmin edilməsi və əməliyyatların yerinə yetirilməsi, elektron kitabların, musiqinin, audio və video materialların, qrafik təsvirlərin, virtual oyunların, proqram təminatlarının yüklənilməsi, reklamların yerləşdirilməsi.*

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

## Elektron ticarəti həyata keçirən qeyri-rezidentlərin ƏDV məqsədləri üçün elektron qaydada vergi uçotuna alınması (davamı)

Qaydaya əsasən, Azərbaycan Respublikasında daimi nümayəndəlik vasitəsilə fəaliyyət göstərməyən və yuxarıda qeyd edilən elektron ticarət xidmətlərini göstərən qeyri-rezident elektron ticarət iştirakçılarının vergi inzibatçılığına dair platformasına məlumatları daxil edərək müraciət edir və təqdim edilən məlumatlar vergi orqanlarında mövcud olan məlumat bazalarından istifadə etməklə 20 iş günü müddətində Qaydaya uyğunluğu yoxlanıldıqdan sonra, imtina halları aşkar edilmədikdə qeyri-rezident şəxs uçota alınır.

Vergi uçotuna duran qeyri-rezidentlər Vergi Məcəlləsinin müvafiq maddələrinə uyğun olaraq təqdim etdikləri xidmətlər (yuxarıda qeyd edilən xidmətlər nəzərə alınmaqla) üzrə aylıq əsasda ƏDV bəyannaməsini təqdim etməli və ƏDV-ni dövlət büdcəsinə ödəməlidirlər. Bu halda isə rezidentlər tərəfindən qeyri-rezident əvəzinə hesablanan və Vergi Məcəlləsinin 169-cu maddəsinə (qeyri-rezidentin ƏDV-yə cəlb edilməsi) əsasən hesablanan ƏDV ödəmə mənbəyində tutulmur.

Beləliklə, elektron ticarəti həyata keçirən qeyri-rezidentlər ƏDV məqsədləri üçün elektron qaydada vergi uçotuna durmalı, müəyyən edilmiş vaxta kimi vergi bəyannaməsini təqdim etməli və ƏDV-ni dövlət büdcəsinə ödəməlidirlər.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Maliyyə lizinqi

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Maliyyə lizinqi

## Anlayış

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 140.2. Aşağıdakı hallarda əmlak icarəsi maliyyə lizinqi sayılır:<br>140.2.1. lizinq müqaviləsi ilə icarə müddəti qurtardıqdan sonra əmlakın mülkiyyətə verilməsi nəzərdə tutulur, yaxud icarə müddəti qurtardıqdan sonra icarəçi əmlakı müəyyən edilmiş və ya qabaqcadan güman edilən qiymətlərlə almaq hüququna malikdir, yaxud;<br>140.2.2. icarə müddəti icarəyə götürülən əmlakın istismar müddətinin 75 faizindən artıqdır, yaxud;<br>140.2.3. icarə müddəti qurtardıqdan sonra əmlakın qalıq dəyəri icarənin əvvəlinə onun bazar qiymətinin 20 faizindən azdır, yaxud;<br>140.2.4. icarə haqqının ödəniləcək məbləği əmlakın icarənin əvvəlinə olan bazar qiymətinin ən azı 90 faizinə bərabərdir və ya ondan artıqdır, yaxud;<br>140.2.5. icarəyə götürülən əmlak icarəçi üçün sifarişlə hazırlanmışdır və icarə müddəti qurtardıqdan sonra icarəçidən başqa heç kəs tərəfindən istifadə edilə bilməz. | 140.2. Aşağıdakı **şərtlər yerinə yetirildiyi** hallarda əmlak icarəsi maliyyə lizinqi sayılır:<br>140.2.1. lizinq müqaviləsi ilə icarə müddəti qurtardıqdan sonra əmlakın mülkiyyətə verilməsi nəzərdə tutulur, yaxud icarə müddəti qurtardıqdan sonra icarəçi əmlakı müəyyən edilmiş və ya qabaqcadan güman edilən qiymətlərlə almaq hüququna malikdir, yaxud;<br>140.2.2. icarə müddəti icarəyə götürülən əmlakın istismar müddətinin 75 faizindən artıqdır, yaxud;<br>140.2.3. icarə müddəti qurtardıqdan sonra əmlakın **Vergi Məcəlləsinə əsasən müəyyənləşdirilmiş** qalıq dəyəri icarənin əvvəlinə onun bazar qiymətinin 20 faizindən azdır, yaxud;<br>140.2.4. icarə haqqının ödəniləcək məbləği əmlakın icarənin əvvəlinə olan bazar qiymətinin ən azı 90 faizinə bərabərdir və ya ondan artıqdır~~, yaxud;~~<br>~~140.2.5. icarəyə götürülən əmlak icarəçi üçün sifarişlə hazırlanmışdır və icarə müddəti qurtardıqdan sonra icarəçidən başqa heç kəs tərəfindən istifadə edilə bilməz.~~ |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Maliyyə lizinqi və əməliyyat icarəsi

## Yeni maddə

140.7. Maliyyə lizinqi müqaviləsinə **vaxtından əvvəl xitam verildiyi halda** əməliyyat bu Məcəllənin 140.2-ci maddəsinin tələblərinə cavab vermədiyi təqdirdə **belə əməliyyat əmlakın icarəyə verilməsi olmaqla** maliyyə lizinqi hesab edilmir. Bu zaman bu Məcəllənin 72.4-1-ci maddəsinə uyğun olaraq vergilərin dəqiqləşdirilməsi **qiymətləndirmə bazasında dəyişikliyin baş verdiyi hesabat dövründə aparılır** və hesabat dövrü üzrə vergi ödəyicisi tərəfindən təqdim edilmiş bəyannamədə dəqiqləşdirilir.

Maliyyə lizinqi müqaviləsi üzrə lizinq alan bu müqavilə üzrə **hüquq və öhdəliklərini digər şəxsə təqdim ediyi halda** lizinq verənlə yeni alıcı arasında yaranan münasibətlər maliyyə lizinqi sayılır və **əvvəlki maliyyə lizinqi müqaviləsinin davamı hesab edilir**.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Maliyyə lizinqi

## ƏDV-dən azadolma

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 164.1.2. maliyyə xidmətlərinin göstərilməsi; | 164.1.2. maliyyə xidmətlərinin göstərilməsi, **o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən faizlər;** |
| 164.1.25. lizinq müqaviləsinin obyekti olan əsas vəsaitlərin idxalı; | 164.1.25. **siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən** lizinq müqaviləsinin obyekti olan əsas vəsaitlərin idxalı;* |

### Yeni maddə

164.1.2-1. ƏDV-dən azad olunan, yaxud ƏDV-yə cəlb edilməyən əməliyyatlar çərçivəsində əldə edilmiş aktivlərin (əsas vəsaitlərin) **maliyyə lizinqi müqaviləsi üzrə təqdim edilməsi**

**Siyahının təsdiq edilməsi ilə eyni gündə qüvvəyə minir.*

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mikrosahibkarlıq subyektləri

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Gəlir vergisi ilə bağlı güzəştlər

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 102.1.30. bu Məcəllə ilə müəyyən olunmuş qaydada gəlirlərin və xərclərin uçotunu aparan mikro sahibkarlıq subyekti olan fərdi sahibkarların sahibkarlıq fəaliyyətindən gəlirinin 75 faizi; | 102.1.30. ~~bu Məcəllə ilə müəyyən olunmuş qaydada gəlirlərin və xərclərin uçotunu aparan~~ **müvafiq il üzrə orta aylıq muzdlu işçi sayı 3 (üç) nəfərdən az olmayan və məcburi dövlət sosial sığorta haqları üzrə borcu olmayan** mikro sahibkarlıq subyekti olan fərdi sahibkarların sahibkarlıq fəaliyyətindən gəlirinin 75 faizi.<br>**Müvafiq il üzrə orta aylıq muzdlu işçi sayı təqvim ili ərzində muzdlu işçilərin sayının cəmlənərək 12-yə bölünməsi yolu ilə müəyyən edilir.**<br>**Vergi ödəyicisi vergi güzəştinin tətbiqi məqsədilə bu maddədə müəyyən edilən şərtə cavab vermədikdə və növbəti hesabat ilində mikro sahibkarlıq subyektindən digər kateqoriya sahibkarlıq subyektinə keçdikdə fərdi sahibkarın mikro sahibkar olduğu əvvəlki 3 təqvim ilinin yekunlarına görə hesablanmış və ödənilmiş gəlir vergisinin 75 faizi həcmində vergi güzəşti müəyyən edilməklə digər sahibkarlıq subyekti olduğu dövrlərdə gəlir vergisi öhdəliyindən çıxılır.**<br>**Vergi ödəyicisi tərəfindən əmtəəsiz əməliyyatlar aparıldığı halda bu maddə ilə müəyyən edilmiş vergi güzəşti əmtəəsiz əməliyyatlardan yaranan gəlirlərə münasibətdə tətbiq edilmir;** |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mikrosahibkarlıq subyektləri

## Mənfəət vergisi ilə bağlı güzəştlər

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 106.1.20. bu Məcəllə ilə müəyyən olunmuş qaydada gəlirlərin və xərclərin uçotunu aparan mikro sahibkarlıq subyekti olan hüquqi şəxslərin sahibkarlıq fəaliyyətindən əldə etdikləri mənfəətin 75 faizi; | 106.1.20. ~~bu Məcəllə ilə müəyyən olunmuş qaydada gəlirlərin və xərclərin uçotunu aparan mikro sahibkarlıq subyekti olan~~ **müvafiq il üzrə orta aylıq muzdlu işçi sayı 3 nəfərdən az olmayan və məcburi dövlət sosial sığorta haqları üzrə borcu olmayan mikro sahibkarlıq subyekti olan** hüquqi şəxslərin sahibkarlıq fəaliyyətindən əldə etdikləri mənfəətin 75 faizi;<br>**Müvafiq il üzrə orta aylıq muzdlu işçi sayı təqvim ili ərzində muzdlu işçilərin sayının cəmlənərək 12-yə bölünməsi yolu ilə müəyyən edilir.**<br>**Vergi ödəyicisi vergi güzəştinin tətbiqi məqsədilə bu maddədə müəyyən edilən şərtə cavab vermədikdə və növbəti hesabat ilində mikro sahibkarlıq subyektindən digər kateqoriya sahibkarlıq subyektinə keçdikdə hüquqi şəxsin mikro sahibkar olduğu əvvəlki 3 (üç) təqvim ilinin yekunlarına görə hesablanmış və ödənilmiş mənfəət vergisinin 75 faizi həcmində vergi güzəşti müəyyən edilməklə digər sahibkarlıq subyekti olduğu dövrlərdə mənfəət vergisi öhdəliyindən çıxılır**<br>**Vergi ödəyicisi tərəfindən əmtəəsiz əməliyyatlar aparıldığı halda bu maddə ilə müəyyən edilmiş vergi güzəşti əmtəəsiz əməliyyatlardan yaranan gəlirlərə münasibətdə tətbiq edilmir;** |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mikrosahibkarlıq subyektləri

## Gəlir vergisi və sadələşdirilmiş vergi – güzəştlər

### Yeni maddə

Maddə 152. İlin yekunlarına görə verginin ödənilməsi

152.3. Gəlir vergisinin ödəyicisi kimi fəaliyyət göstərən mikro sahibkarlıq subyekti olan fiziki şəxslər tərəfindən özlərinə görə ödədikləri **illik məcburi dövlət sosial sığorta haqqı məbləğinin 25 faizi** 2024-cü il yanvarın 1-dən 3 il müddətinə vergi ödəyicisinin təqvim ilinin yekunlarına görə hesablanmış və əvvəlki illərin zərəri çıxılmaqla ödənilməli olan **gəlir vergisi öhdəliyindən (həmin öhdəliklərin məbləğindən çox olmamaqla) çıxılır**.

Maddə 221. Sadələşdirilmiş verginin hesablanması qaydası, ödəmə müddəti və bəyannamənin verilməsi

221.1-1. Sadələşdirilmiş verginin ödəyicisi kimi fəaliyyət göstərən mikro sahibkarlıq subyekti olan fiziki şəxslər tərəfindən özlərinə görə ödədiyi **rüblük məcburi dövlət sosial sığorta haqqı məbləğinin 25 faizi** 2024-cü il yanvarın 1-dən 3 il müddətinə vergi ödəyicisinin rüb ərzində hesablanmış **sadələşdirilmiş vergi öhdəliyindən (həmin öhdəliklərin məbləğindən çox olmamaqla) çıxılır**.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Sadələşdirilmiş vergi

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Sadələşdirilmiş vergi

## İctimai iaşə sektoru

### Yeni maddə

Maddə 155. Qeydiyyata dair ərizə verilməsinin tələb edilməsi (əlavə müddəa)
Bu Məcəllənin 218.1.2-ci maddəsində göstərilən şəxslər* həmin maddədə müəyyən edilmiş hüquqdan istifadə etdikdə ardıcıl 12 aylıq dövrün istənilən ayında vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatı keçdiyi aydan **sonrakı ayın 1-dən etibarən 10 gün ərzində** fəaliyyətlərini **sadələşdirilmiş vergi ödəyicisi kimi davam etdirəcəkləri barədə vergi orqanına yazılı formada ərizə təqdim etməlidirlər.**

218.2-1. Bu Məcəlllənin 218.1.2-ci maddəsində göstərilən şəxslərin* vergiyə cəlb olunan əməliyyatlarının ümumi məbləği **əvvəlki tam 12 təqvim ayı ərzində 100.000 manatdan çox deyilsə** və vergi ödəyicisi bu rejimdə **azı 1 il ərzində fəaliyyət göstərmişdirsə**, o, istənilən vaxt fəaliyyətini bu **Məcəllənin 218.1.1-ci maddəsinə uyğun** və ya **gəlir (mənfəət) vergisi ödəyicisi kimi davam etdirmək barədə müraciət edə bilər**.

**218.1.2. vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər.*

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Sadələşdirilmiş vergi

## Yükdaşıma və sərnişindaşıma

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 156.1-1. Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsilə həyata keçirən və aşağıdakı tələblərə cavab verən şəxslər bu maddə ilə müəyyən edilən hüquqdan istifadə edə bilər:<br>156.1-1.1. göstərilən xidmətlərin dəyərini və alınmış malların (işlərin və xidmətlərin) dəyərini nağdsız qaydada əldə edən və ödəyən;<br>156.1-1.2. digər vergi ödəyicilərinə göstərilən xidmətlər üzrə əldə edilən gəlirlərini və gəlirlərin əldə edilməsi üzrə çəkilən xərclərini elektron qaimə-faktura ilə rəsmiləşdirən;<br>156.1-1.3. göstərilən xidmətlər üzrə əməliyyatların uçotunu vahid mərkəzləşdirilmiş elektron sistem üzərində aparan və vergi orqanının həmin sistemə məsafədən çıxış imkanını təmin edən. | ~~156.1-1. Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsilə həyata keçirən və aşağıdakı tələblərə cavab verən şəxslər bu maddə ilə müəyyən edilən hüquqdan istifadə edə bilər:~~<br>~~156.1-1.1. göstərilən xidmətlərin dəyərini və alınmış malların (işlərin və xidmətlərin) dəyərini nağdsız qaydada əldə edən və ödəyən;~~<br>~~156.1-1.2. digər vergi ödəyicilərinə göstərilən xidmətlər üzrə əldə edilən gəlirlərini və gəlirlərin əldə edilməsi üzrə çəkilən xərclərini elektron qaimə-faktura ilə rəsmiləşdirən;~~<br>~~156.1-1.3. göstərilən xidmətlər üzrə əməliyyatların uçotunu vahid mərkəzləşdirilmiş elektron sistem üzərində aparan və vergi orqanının həmin sistemə məsafədən çıxış imkanını təmin edən.~~<br>**156.1-1. bu Məcəllənin 218.4.1-ci maddəsində nəzərdə tutulan, göstərilən xidmətlərin dəyərini nağdsız qaydada əldə edən şəxslər (taksi fəaliyyəti göstərən şəxslər istisna olmaqla) bu maddə ilə müəyyən edilən hüquqdan istifadə edə bilərlər.** |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Sadələşdirilmiş vergi

## Yükdaşıma

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 156.1-2. Bu Məcəllənin 156.1-1-ci maddəsində nəzərdə tutulan şəxslər yanvar ayının 31-dən gec olmayaraq, ƏDV məqsədləri üçün qeydiyyata alınmasına dair ərizəni uçotda olduğu vergi orqanına təqdim edir və həmin şəxslərin ƏDV məqsədləri üçün qeydiyyatı həmin ayın birinci günündən qüvvəyə minir. | ~~156.1-2. Bu Məcəllənin 156.1-1-ci maddəsində nəzərdə tutulan şəxslər yanvar ayının 31-dən gec olmayaraq, ƏDV məqsədləri üçün qeydiyyata alınmasına dair ərizəni uçotda olduğu vergi orqanına təqdim edir və həmin şəxslərin ƏDV məqsədləri üçün qeydiyyatı həmin ayın birinci günündən qüvvəyə minir.~~ |
| 157.3.3. Bu Məcəllənin 85.4-cü maddəsi ilə müəyyən edilmiş 3 il müddətindən çox olmamaqla, vergi ödəyicisinin qeydiyyat haqqındakı ərizəsində göstərilən tarixdə.<br>Bu Məcəllənin 85.4-cü maddəsində göstərilən 3 illik dövr bitdikdən sonra vergi ödəyicisi tərəfindən ƏDV-nin dəqiqləşdirilməsinə və əvəzləşdirilməsinə yol verilmir.<br>Bu maddənin müddəaları bu Məcəllənin 218.4.1-ci maddəsində göstərilən şəxslərə tətbiq edilmir. | 157.3.3. Bu Məcəllənin 85.4-cü maddəsi ilə müəyyən edilmiş 3 il müddətindən çox olmamaqla, vergi ödəyicisinin qeydiyyat haqqındakı ərizəsində göstərilən tarixdə.<br>Bu Məcəllənin 85.4-cü maddəsində göstərilən 3 illik dövr bitdikdən sonra vergi ödəyicisi tərəfindən ƏDV-nin dəqiqləşdirilməsinə və əvəzləşdirilməsinə yol verilmir.<br>Bu maddənin müddəaları bu Məcəllənin 218.4.1-ci maddəsində göstərilən şəxslərə, **habelə Azərbaycan Respublikasının ərazisində yük daşımalarını həyata keçirən şəxslərə** tətbiq edilmir. |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 218.4.1. bu Məcəllənin 156-cı maddəsinin müddəaları nəzərə alınmaqla, mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsi ilə həyata keçirən şəxslər; | 218.4.1. bu Məcəllənin 156-cı maddəsinin müddəaları nəzərə alınmaqla, mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq ~~yük və~~ sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin ~~və yük~~ daşımalarını (o cümlədən taksi ilə) ~~və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsi ilə~~ həyata keçirən şəxslər; |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Sadələşdirilmiş vergi

## Yükdaşıma

### Dəyişikliklər

#### Dəyişiklikdən əvvəl

221.4.7. Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər hər bir avtomobil nəqliyyatı vasitəsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) təqvim ayının sonunadək öz istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarımil və ya il üçün ciddi hesabat blankı olan "Fərqlənmə nişanı" almalıdırlar. "Fərqlənmə nişanı" vergi ödəyicisinin nəqliyyat siyasətini həyata keçirən müvafiq mərkəzi icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş formada ərizəsinə əsasən iki iş günündən gec olmayaraq verilir.

"Fərqlənmə nişanı" almaq üçün vergi ödəyicisinin ərizəsinə həmin fəaliyyət üçün sadələşdirilmiş verginin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsini təsdiq edən bank ödəniş sənədi əlavə edilməlidir. Bank ödəniş sənədində avtomobil nəqliyyatı vasitəsinin dövlət qeydiyyat nişanının seriya və nömrəsi aydın göstərilməlidir.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər hesablanmış vergini, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqını tam məbləğdə dövlət büdcəsinə ödədikdən sonra onlara "Fərqlənmə nişanı" verilir.

#### Yeni redaksiya

221.4.7. Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər hər bir avtomobil nəqliyyatı vasitəsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) təqvim ayının sonunadək öz istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarımil və ya il üçün ciddi hesabat blankı olan "Fərqlənmə nişanı" almalıdırlar. "Fərqlənmə nişanı" vergi ödəyicisinin müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş formada ərizəsinə əsasən iki iş günündən gec olmayaraq verilir.

"Fərqlənmə nişanı" almaq üçün vergi ödəyicisinin **(yük daşımalarını həyata keçirən vergi ödəyiciləri istisna olmaqla)** ərizəsinə həmin fəaliyyət üçün sadələşdirilmiş verginin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsini təsdiq edən bank ödəniş sənədi əlavə edilməlidir. Bank ödəniş sənədində avtomobil nəqliyyatı vasitəsinin dövlət qeydiyyat nişanının seriya və nömrəsi aydın göstərilməlidir.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin ~~və yük~~ daşımalarını həyata keçirən hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər hesablanmış vergini, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqını tam məbləğdə dövlət büdcəsinə ödədikdən sonra onlara "Fərqlənmə nişanı" verilir.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Sadələşdirilmiş vergi

## Yükdaşıma

### Dəyişikliklər (davamı)

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Avtonəqliyyat vasitəsinin sahibi və ya istifadəçisi dəyişdikdə həmin nəqliyyat vasitəsinə sonrakı aylar üçün əvvəlki sahib və ya istifadəçi tərəfindən qabaqcadan ödənilmiş vergilər, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqı nəzərə alınır və verginin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənildiyini təsdiq edən "Fərqlənmə nişanı"nın yenidən rəsmiləşdirilməsi tələb olunmur. | **Yük daşımalarını həyata keçirən vergi ödəyiciləri tərəfindən "Fərqlənmə nişanı"nın alınması üçün verginin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi tələb edilmir və qeyd edilən öhdəliklər həmin şəxslər tərəfindən qanunla müəyyən edilmiş qaydada yerinə yetirilir.**<br>Avtonəqliyyat vasitəsinin sahibi və ya istifadəçisi dəyişdikdə həmin nəqliyyat vasitəsinə sonrakı aylar üçün əvvəlki sahib və ya istifadəçi tərəfindən qabaqcadan ödənilmiş vergilər, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqı nəzərə alınır və verginin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənildiyini təsdiq edən "Fərqlənmə nişanı"nın yenidən rəsmiləşdirilməsi tələb olunmur. |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Aksiz vergisi

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Aksiz vergisi

## Aksizli malların siyahısı

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
| --- | --- |
| 190.1. Aşağıdakı mallar aksizli mallara aid edilir:<br>- içməli spirt, pivə və spirtli içkilərin bütün növləri;<br>- tütün məmulatları;<br>- neft məhsulları;<br>- minik avtomobilləri (xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı avtonəqliyyat vasitələri istisna olmaqla);<br>- istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr;<br>- idxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz;<br>- energetik içkilər;<br>- avtobuslar (sıxılmış qazla işləyən avtobuslar istisna olmaqla);<br>- elektron siqaretlər üçün maye;<br>– istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, “homogenləşdirilmiş” və ya “bərpa edilmiş” tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər, habelə qəlyan üçün tütünlər və tütün əvəzləyiciləri;<br>– qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsulları;<br>– birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri. | 190.1. Aşağıdakı mallar aksizli mallara aid edilir:<br>**190.1.1. tütün məmulatları və onların əvəzediciləri;**<br>**190.1.2. birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri;**<br>**190.1.3. elektron siqaretlər üçün maye;**<br>**190.1.4. içməli spirt, pivə (alkoqolsuz pivə istisna olmaqla) və spirtli içkilərin bütün növləri;**<br>**190.1.5. energetik içkilər;**<br>**190.1.6. neft məhsulları;**<br>**190.1.7. minik avtomobilləri (xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı avtonəqliyyat vasitələri istisna olmaqla);**<br>**190.1.8. avtobuslar (sıxılmış qazla işləyən avtobuslar istisna olmaqla);**<br>**190.1.9. dövlət qeydiyyatına alınmalı olan motosikletlər;**<br>**190.1.10. istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr;**<br>**190.1.11. idxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz;**<br>**190.1.12. idxal olunan xəz-dəri məmulatları.** |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Aksiz vergisi

## Aksiz vergisinin dərəcələri

### Dəyişikliklər və yeni maddələr

190.3.1. içməli spirt (o cümlədən tərkibində 80 faizdən az spirt olmayan denaturlaşdırılmamış etil spirti; tərkibində 80 faizdən az spirt olan denaturlaşdırılmamış etil spirti) hər litrinə - ~~4,0~~ **4,8** manat;

190.3.2. araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likyor və likyor məmulatları - hər litrinə ~~4,0~~ **4,8** manat;

190.3.3. konyak və konyak materialları - hər litrinə ~~4,0~~ **4,8** manat;

190.3.4. şampan şərabı - hər litrinə ~~2,6~~ **0,2** manat;

190.3.7. siqarilla (nazik siqarlar) - 1000 ədədinə ~~43,0~~ **45,5** manat;

190.3.8. tütündən hazırlanan siqaretlər və onun əvəzediciləri - 1000 ədədinə ~~38,5~~ **45,5** manat;

190.3.15. ~~qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsulları~~ **alışdırılmadan nəfəsə çəkilmək üçün nəzərdə tutulmuş tərkibində tütün və ya bərpa edilmiş tütün olan məhsullar** – 1000 ədədinə ~~14,0~~ **16** manat;

190.3.16. birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri -hər bir ədədinə ~~0,25~~ **2** manat.

**190.4.1-5. motosikletlərə görə:**

*mühərrikin həcmi 125 sm$^3$-dək olduqda -* ***hər sm$^3$ görə 0,20 manat***

*mühərrikin həcmi 500 sm$^3$-dək olduqda -* ***25 manat + 126-500 sm$^3$ üçün hər sm$^3$ görə 0,40 manat***

*mühərrikin həcmi 500 sm$^3$-dən çox olduqda -* ***175 manat + 500 sm$^3$ çox hissəsi üçün hər sm$^3$ görə 0,50 manat***

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 188.1. Aşağıdakılar aksizdən azad edilir:<br><br>188.1.1. fiziki şəxsin fərdi istehlakı üçün 1,5 litr alkoqollu içkinin, 200 ədəd siqaretin, 20 qram qızılın, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş 0,5 karat almazın idxalı, həmçinin Azərbaycan Respublikasına avtomobillərlə gələn şəxslər üçün həmin avtomobilin texniki pasportu ilə nəzərdə tutulmuş bakındakı yanacaq; | 188.1. Aşağıdakılar aksizdən azad edilir:<br><br>**188.1.1. fiziki şəxsin şəxsi istifadəsi üçün aşağıdakı miqdarda aksizli malların idxalı:**<br>**188.1.1.1. 1,5 litr alkoqollu içki;**<br>**188.1.1.2. 2 litr energetik içki;**<br>**188.1.1.3. 200 ədəd siqaret, 20 ədəd siqarilla və 10 ədəd siqar;**<br>**188.1.1.4. 3 ədəd birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri;**<br>**188.1.1.5. 100 ədəd alışdırılmadan nəfəsə çəkilmək üçün nəzərdə tutulmuş tərkibində tütün və ya bərpa edilmiş tütün olan məhsullar;**<br>**188.1.1.6. 100 qram çəkməli tütünlər, “homogenləşdirilmiş” və ya “bərpa edilmiş” tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər, habelə qəlyan üçün tütünlər və tütün əvəzləyiciləri;**<br>**188.1.1.7. 50 millilitr elektron siqaretlər üçün maye;**<br>**188.1.1.8. 20 qram qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları;**<br>**188.1.1.9. 0,5 karat emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz;**<br>**188.1.1.10. Azərbaycan Respublikasına avtomobillərlə gələn şəxslər üçün həmin avtomobilin texniki pasportu ilə nəzərdə tutulmuş çənindəki yanacaq.** |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Azadolmalar

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 188.1.7. bu Məcəllənin 188.1.1-ci maddəsinin müddəaları nəzərə alınmaqla, idxal olunan platin, qızıl və onlardan hazırlanmış zərgərlik və digər məmulatlar, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz - 2021-ci il yanvarın 1-dən 3 il müddətinə. | 188.1.7. bu Məcəllənin 188.1.1-ci maddəsinin müddəaları nəzərə alınmaqla, idxal olunan platin, qızıl və onlardan hazırlanmış zərgərlik və digər məmulatlar, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz - 2021-ci il yanvarın 1-dən **6** il müddətinə. |

## Yeni maddə

188.1.8. mühərrikinin işçi həcmi 125 kubsantimetrdən çox olmayan **motosikletlərin idxalı** - 2024-cü il yanvarın 1-dən 3 il müddətinə.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Tütün məmulatları – vergitutma obyekti

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 184.1. Aşağıdakı əməliyyatlar vergitutma obyektləridir:<br>184.1.1. Azərbaycan Respublikasının ərazisində istehsal edilən aksizli malların istehsal binasının hüdudlarından kənara buraxılması;<br>184.1.2. idxal malları üçün - Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq aksizli malların gömrük xidmətinin nəzarətindən çıxması. | 184.1. Aşağıdakı əməliyyatlar vergitutma obyektləridir:<br>184.1.1. Azərbaycan Respublikasının ərazisində istehsal edilən, **bu Məcəllənin 190.1.1 - 190.1.3-cü* maddələrində göstərilən aksizli mallardan başqa digər** aksizli malların istehsal binasının hüdudlarından kənara buraxılması;<br>184.1.2. **bu Məcəllənin 190.1.1 - 190.1.3-cü maddələrində göstərilən aksizli mallardan başqa digər** idxal malları üçün - Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq aksizli malların gömrük xidmətinin nəzarətindən çıxması;<br>**184.1.3. Azərbaycan Respublikasının ərazisində istehsal edilən, habelə Azərbaycan Respublikasına idxal olunan bu Məcəllənin 190.1.1 - 190.1.3-cü maddələrində göstərilən aksizli mallar üçün məcburi nişanın alınması***. |

**190.1.1. tütün məmulatları və onların əvəzediciləri;*
*190.1.2. birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri;*
*190.1.3. elektron siqaretlər üçün maye;*

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Tütün məmulatları - əməliyyatın vaxtı

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| Maddə 186. Vergi tutulan əməliyyatın vaxtı<br><br>186.1. Azərbaycan Respublikası ərazisində istehsal olunan mallar üçün - malların istehsal binasının hüdudlarından kənara buraxıldığı vaxt vergi tutulan əməliyyatın vaxtıdır.<br>186.2. Malların idxalı üçün - Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq aksizli malların gömrük xidmətinin nəzarətindən çıxdığı vaxt vergi tutulan əməliyyatın vaxtıdır. | Maddə 186. Vergi tutulan əməliyyatın vaxtı<br><br>186.1. Azərbaycan Respublikası ərazisində istehsal olunan, **bu Məcəllənin 190.1.1 - 190.1.3-cü maddələrində göstərilən aksizli mallardan başqa digər aksizli** mallar üçün - malların istehsal binasının hüdudlarından kənara buraxıldığı vaxt vergi tutulan əməliyyatın vaxtıdır.<br>186.2. **bu Məcəllənin 190.1.1 - 190.1.3-cü maddələrində göstərilən aksizli mallardan başqa digər aksizli** malların idxalı üçün - Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq aksizli malların gömrük xidmətinin nəzarətindən çıxdığı vaxt vergi tutulan əməliyyatın vaxtıdır.<br>**186.3. Azərbaycan Respublikasının ərazisində istehsal edilən, habelə Azərbaycan Respublikasına idxal olunan bu Məcəllənin 190.1.1 – 190.1.3-cü maddələrində göstərilən aksizli mallar üçün məcburi nişanın alındığı vaxt vergi tutulan əməliyyatın vaxtıdır.*** |

**190.1.1. tütün məmulatları və onların əvəzediciləri;*
*190.1.2. birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri;*
*190.1.3. elektron siqaretlər üçün maye;*

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Aksiz vergisi

## Tütün məmulatları – ödəniş və dövriyyənin dəqiqləşdirilməsi

### Yeni maddə

186-1.4. bu Məcəllənin 190.1.1 – 190.1.3-cü maddələrində göstərilən aksizli malların istehsalçısı olan hüquqi şəxs ləğv edildikdə və ya fərdi sahibkarın fəaliyyətinə xitam verildikdə onların sahibliyində **aktivləşdirilməmiş məcburi nişan qalarsa**, vergi ödəyicisi həmin nişanları alarkən ödənilmiş **aksiz məbləğlərini geri almaq hüququna malikdir.***

191.3-1. bu Məcəllənin 190.1.1 - 190.1.3-cü maddələrində göstərilən aksizli mallar Azərbaycan Respublikasının ərazisində istehsal və ya ölkəyə idxal edildikdə aksizlər həmin mallar üçün **məcburi nişanın alındığı vaxt ödənilir.***

**2024-cü il iyulun 1-dən qüvvəyə minir*

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Aksiz vergisi

## Aksiz hesablanan dövriyyənin dəqiqləşdirilməsi

### Yeni maddə

186-1.5. **Aksiz dərəcələrində artım olduqda**, məcburi nişan alarkən vergini aşağı dərəcə ilə ödəmiş vergi ödəyicisi dəyişikliyin qüvvəyə mindiyi tarixə sahibliyində olan aktivləşdirilməmiş məcburi nişanlara görə artırılmış dərəcəyə əsasən hesablanmış aksiz məbləği ilə əvvəlki dərəcəyə əsasən hesablanmış aksiz məbləği arasındakı fərqi dəyişikliyin qüvvəyə mindiyi ayın aksiz bəyannaməsində əks etdirməklə növbəti ayın 20-dən gec olmayaraq, idxal əməliyyatlarına münasibətdə isə həmin məcburi nişanlarla nişanlanmış malların idxal edildiyi vaxt gömrük bəyannaməsində əks etdirməklə dövlət büdcəsinə ödəməlidir.*

186-1.6. **Aksiz dərəcələrində azalma olduqda**, məcburi nişan alarkən vergini yuxarı dərəcə ilə ödəmiş vergi ödəyicisi dəyişikliyin qüvvəyə mindiyi tarixə sahibliyində olan aktivləşdirilməmiş məcburi nişanlara görə azaldılmış dərəcəyə əsasən hesablanmış aksiz məbləği ilə əvvəlki dərəcəyə əsasən hesablanmış aksiz məbləği arasındakı fərqi dəyişikliyin qüvvəyə mindiyi ayın aksiz bəyannaməsində əks etdirməklə, idxal əməliyyatlarına münasibətdə isə həmin məcburi nişanlarla nişanlanmış malların idxalı üzrə tərtib edilmiş gömrük bəyannaməsində əks etdirməklə aksiz öhdəliyini azaldır.*

**2024-cü il iyulun 1-dən qüvvəyə minir*

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əmlak vergisi

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əmlak vergisi

## Vergi güzəştləri və azadolmalar

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 199.3. Binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla, bu Məcəllənin 102.2-ci maddəsində göstərilən şəxslərin, habelə pensiyaçıların və müddətli hərbi xidmət hərbi qulluqçularının və onların ailə üzvlərinin müddətli hərbi xidmət dövründə binalara görə ödəməli olduqları əmlak vergisininin məbləği 30 manat azaldılır. | 199.3. Binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla, bu Məcəllənin **102.1-1-ci*** və 102.2-ci **maddələrində** göstərilən şəxslərin, habelə pensiyaçıların və müddətli hərbi xidmət hərbi qulluqçularının və onların ailə üzvlərinin müddətli hərbi xidmət dövründə binalara görə ödəməli olduqları əmlak vergisininin məbləği 30 manat azaldılır. |
| 199.9. Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən, sənaye üsulu ilə) hüquqi və fiziki şəxslər həmin fəaliyyət prosesində istifadə olunan əmlaka görə 2014-cü il yanvarın 1-dən 10 il müddətinə əmlak vergisini ödəməkdən azaddırlar. | 199.9. Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən, sənaye üsulu ilə) hüquqi və fiziki şəxslər həmin fəaliyyət prosesində istifadə olunan əmlaka görə 2014-cü il yanvarın 1-dən **13** il müddətinə əmlak vergisini ödəməkdən azaddırlar. |

**Şəhid statusu almış şəxslərin ailə üzvləri*

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əmlak vergisi

## Vergi güzəştləri və azadolmalar

### Yeni maddə

199.20. Kredit təşkilatları verilmiş **kredit müqabilində onların mülkiyyətinə keçən əmlaklara** görə həmin əmlakların balansa götürüldüyü təqvim ilindən başlayaraq **2 il müddətinə əmlak vergisini ödəməkdən azaddırlar**.

199.21. Bu Məcəllənin 199.11-ci, 199.14-cü və 199.15-ci maddələri nəzərə alınmaqla, Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonu istisna olmaqla, respublikanın digər şəhər və rayonlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında **mehmanxana (hotel) və sanatoriya fəaliyyətində istifadə edilən** (bu Məcəllənin 16.3-cü maddəsinə müvafiq olaraq sahibkarlıq fəaliyyətinin müvəqqəti dayandırıldığı dövr istisna olmaqla) yerləşmə vasitəsi olan daşınmaz əmlaklara görə **əmlak vergisi 2024-ci il yanvarın 1-dən 3 il müddətinə 75 faiz azaldılır**.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Torpaq vergisi

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Torpaq vergisi

## Vergi güzəştləri və azadolmalar

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 207.2. Bu Məcəllənin 102.2-ci maddəsində göstərilən şəxslərin mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği 10 manat azaldılır. | 207.2. Bu Məcəllənin **102.1-1-ci*** və 102.2-ci **maddələrində** göstərilən şəxslərin mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği 10 manat azaldılır. |

### Yeni maddə

207.12. Kredit təşkilatları verilmiş **kredit müqabilində onların mülkiyyətinə keçən torpaqlara** görə həmin torpaqların balansa götürüldüyü təqvim ilindən başlayaraq **2 il müddətinə torpaq vergisini ödəməkdən azaddırlar**.

**Şəhid statusu almış şəxslərin ailə üzvləri*

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Torpaq vergisi

## Verginin hesablanması və ödənilməsi qaydaları

### Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
| --- | --- |
| 208.2. Torpaq vergisini müəssisələr torpaq sahələrinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən illik olaraq hesablayır və mayın 15-dən gec olmayaraq hesablamaları vergi orqanına verirlər. | 208.2. Torpaq vergisini müəssisələr torpaq sahələrinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən illik olaraq hesablayır və ~~mayın 15-dən~~ **hesabat ilindən sonrakı il yanvarın 31-dən** gec olmayaraq ~~hesablamaları~~ **bəyannaməni** vergi orqanına verirlər. **Hüquqi şəxs və ya qeyri-rezident hüquqi şəxsin daimi nümayəndəliyi ləğvetmə balansını qeydiyyat orqanına təqdim etdiyi tarixdən 30 gün müddətində torpaq vergisi bəyannaməsini vergi orqanına təqdim etməyə borcludur.** |
| 208.5. Torpaq vergisi bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq ödənilir.Torpaq vergisi torpağın əvvəlki sahibi tərəfindən ödənilmədiyi halda, vergi bu maddə ilə müəyyən edilmiş ödəmə vaxtına həmin torpağın sahibi tərəfindən ödənilir. | 208.5. **Fiziki şəxslər tərəfindən** torpaq vergisi bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq ödənilir.Torpaq vergisi torpağın əvvəlki sahibi tərəfindən ödənilmədiyi halda, vergi bu maddə ilə müəyyən edilmiş ödəmə vaxtına həmin torpağın sahibi tərəfindən ödənilir. |

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Torpaq vergisi

## Torpaq vergisinin hesablanması və ödənilməsi qaydaları

### Yeni maddə

208.5-1. Müəssisələr tərəfindən torpaq vergisi üzrə cari vergi ödənişləri 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq bərabər məbləğlərdə ödənilir. **Hər ödəmənin məbləği əvvəlki vergi ilində hesablanmış vergi məbləğinin 1/2 hissəsini təşkil edir.**
Əvvəlki hesabat ilində torpaq vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və torpaq vergisi ödəyicisi olan müəssisələr torpaq sahələrini əldə etdikdən (o cümlədən dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlardan icarə və ya digər əsaslarla istifadə hüququ yarandıqdan) sonra bu maddədə müəyyən olunmuş müddətlərdən gec olmayaraq hər ödəniş üzrə həmin torpaq sahələrinə görə hesablanmalı olan illik torpaq vergisi məbləğinin 50 faizi miqdarında cari vergi ödənişlərini yerinə yetirirlər.
Torpaq vergisi üzrə cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir. Torpaq vergisi üzrə cari vergi ödəmələri hesabat ili başa çatdıqdan sonra yenidən haqq-hesab edilir və bu zaman hesablanmış cari vergi məbləği hesabat üzrə vergi məbləğindən çox olduğu halda artıq hesablanmış cari vergi və ona uyğun faiz məbləğləri azaldılır.

208.5-2. Vergi ödəyicisinin **hesabat dövründə** torpaq sahəsinə **mülkiyyət hüq**uqu, habelə dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlardan icarə və ya digər əsaslarla **istifadə hüququ yarandıqda və ya bu hüquqa xitam verildikdə**, həmin torpaq sahəsinə münasibətdə vergi məbləğinin hesablanması bu torpaq sahəsinin vergi ödəyicisinin mülkiyyətinə (icarə və ya digər əsaslarla istifadəsinə) keçdiyi aydan **sonrakı aydan etibarən** mülkiyyətində (icarə və ya digər əsaslarla istifadəsində) olduğu ayların sayına **mütənasib olaraq aparılır**.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL ("Deloitte Qlobal") və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Deloitte qlobal səviyyədə audit və əminlik, konsaltinq, maliyyə, risk, vergi üzrə məsləhət xidməti və digər əlaqədar xidmətlər göstərən aparıcı markalardandır. 150-dən çox ölkədə və ərazidə xidmətlər göstərən üzv şirkətlər şəbəkəsi Fortune Global 500® üzrə beş şirkətdən dördünə öz xidmətlərini göstərir. Deloitte-un təxminən 330,000 peşəkar mütəxəssisinin təklif etdiyi fərq yaradan həllər haqqında ətraflı məlumat üçün www.deloitte.com səhifəsinə daxil olun.

Bu məlumatda yalnız ümumi informasiya əks olunur və Deloitte Touche Tohmatsu Limited şirkətlərindən, onun üzv şirkətlərindən və ya əlaqədar müəssisələrdən (birlikdə "Deloitte Şəbəkəsi") hər hansı biri bu məlumat vasitəsilə peşəkar məsləhətləşmə və ya xidmətlər təmin etmir. Maliyyə fəaliyyətinizə və ya müəssisənizə təsir göstərə biləcək hər hansı qərarlar qəbul etməzdən və ya tədbirlər görməzdən əvvəl peşəkar mütəxəssis ilə məsləhətləşmək daha məqsədəuyğundur. Deloitte Şəbəkəsinə daxil olan heç bir müəssisə bu məlumata istinad edən hər hansı şəxsin məruz qaldığı zərərə görə məsuliyyət daşımır.

© 2024 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.